RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 58 (8374) BAZAR, 15 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin liderliyi ilə yaranan "Cənub qaz dəhlizi"

## Bu layihənin tam başa çatdırılması ilə Azərbaycanın qlobal enerji təhlükəsizliyində mövqeləri daha da güclənəcək

Azərbaycan qazının Avropa bazarlarına çıxarılacağı günə az qalır. "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP layihəsi üzrə görülən işlərin icra göstəricisi artıq 92 faizə çatıb. Yeddi ölkənin - Azərbaycan, Gürcüstan, Türkiyə, Albaniya, Yunanıstan, Bolqarıstan və İtaliyanın iştirak etdiyi və Avropa İttifaqının dəstək verdiyi "Cənub qaz dəhlizi"nin tam gücü ilə işə salınmasından sonra respublikamızın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı mövqeləri daha da güclənəcək.

### İdeyadan reallığa

Xatırladaq ki, hələ 9 il əvvəl, 2011-ci ilin yanvar ayında Avropa Komissiyasının o zamankı sədri Xose Manuel Barrozu Bakıda rəsmi səfərdə olarkən Azərbaycanla Avropa İttifaqı arasında "Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə" imzalanmışdı. Bu sənəd tərəflər arasında buna qədər aparılan danışıqların, anlaşmaların bir növ yekunu olmaqla enerji təhlükəsizliyi sahəsində əməkdaşlıqda tamamilə yeni mərhələnin əsasını qoydu.

O zaman "Cənub qaz dəhlizi"nin ərsəyə gəlməsi xəyal kimi görünə bilərdi. Xatırladaq ki, hələ 1994-cü ildə "Əsrin müqaviləsi" imzalananda da bəziləri onun gələcəyinə inana bilmirdilər. Amma Azərbaycan dövləti həmin müqavilə ilə qarşıda dayanan bütün məqsədlərinə doğru inamla irəlilədi, bütün maneələri əzmlə aşdı. Bu mənada Aİ "Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə"ni Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin inşasını qətiyyətlə başa çatdıran, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsini əzmlə reallaşdırmaqda olan bir dövlət kimi Azərbaycanla bu müqavilənin imzalanmasının fərqindəydi. Tarixin sınaqlarından alnıaçıq çıxan Azərbaycanın qətiyyəti, tərəfdaşlığa olan sadiqliyi dəyəri milyardlarla dollarla ölçülən bu layihənin sürətlə ərsəyə gətirilməsini təmin etdi.

Lakin unutmaq lazım deyil ki, "Cənub qaz dəhlizi"nin çəkilişi bir çox mürəkkəb vəzifələrin yerinə yetirilməsini tələb edirdi. Bu baxımdan dəhlizin seqmentləri olan "Şahdəniz" qaz yatağının ikinci mərhələdə işlənilməsi, Cənubi Trans-Anadolu təbii qaz boru kəməri -TANAP-ın çəkilməsi, Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi olduqca möhtəşəm tarixi nailiyyətlərdir. Qeyd edək ki, "Cənub qaz dəhlizi" üzrə Azərbaycan və Gürcüstanda həyata keçirilən layihələr 2018-ci ilin mayında başa çatdırıldı. TANAP boru kəmərinin birinci fazası isə 2018-ci ilin iyununda istifadəyə verildi. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi həmin il iyunun 30-da başladı. Ötən ilin noyabrında isə Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP Avropaya birləşdi.

*Ardı 2-ci səh.*

# Müasirliklə təcrübənin vəhdəti

## Dövlət başçısının kadr və struktur islahatları ilə daha çevik, operativ idarəçilik mexanizmi formalaşır

**Dövlət idarəçilik sistemini daim təkmilləşdirən və bu istiqamətdə düşünülmüş addımlar atan Prezident İlham Əliyev daha iki gənc kadra etimad göstərdi. İsmayıllı və Neftçala rayonlarına yeni icra hakimiyyəti başçıları təyin edən Prezident gənclərə ciddi tapşırıq və tövsiyələrini verməklə yanaşı, bəzi məmurlara xəbərdarlıq da etdi.**

### Dövlət başçısının gənc kadrlara etimadı yüksəkdir

Son dövrlərdə idarəetmə sistemində həyata keçirilən struktur islahatları çərçivəsində gənc kadrlara rəhbər korpusda yüksək etimadın göstərilməsi ölkə ictimaiyyəti tərəfindən çox müsbət qiymətləndirilir. Bu, dövlət rəhbərliyinin ölkədə müxtəlif sferaların inkişafında gənclərə böyük etimad göstərməsinin təzahürüdür.

Öncə onu vurğulayaq ki, Azərbaycanda gənclərin indiki mərhələdə rəhbər vəzifələrə irəli çəkilməsi üçün uzun illərdir ki, baza formalaşdırılır. Prezident İlham Əliyevin hər zaman dəstək verdiyi ölkə gəncliyi isə üzərinə düşən vəzifəni uğurla reallaşdıraraq dövlət başçısının yürütdüyü müstəqil siyasətə, dövlətçiliyə mühüm töhfələr verməyə çalışır. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycanda bütün sahələrdə gənclərdən ibarət peşəkar kadr potensialı formalaşıb. Dövlət idarəetməsinin müxtəlif sferalarında bu potensialdan səmərəli istifadə etmək imkanları yaranıb və gənc kadrlara etimadın artması gəncliyin stimullaşdırılması baxımından da əhəmiyyətlidir.

Prezidentin də söylədiyi kimi gənclər mütəmadi olaraq yeniliklərə can atır, yeni yanaşmalara üstünlük verməyə cəhd göstərirlər. Yeni nəsil yaşlı nəsillə müqayisədə müasir dövrün tələblərinə tez uyğunlaşır, elmi-texniki tərəqqinin nailiyyətlərini daha tez mənimsəyir, onun tətbiqinə üstünlük verir. Ancaq bu o demək deyil ki, bütün strukturlarda rəhbər vəzifələrdə yalnız gənclər təmsil olunmalıdırlar.

*Ardı 3-cü səh.*

# Azərbaycan və Türkiyə prezidentləri koronavirusa qarşı mübarizə tədbirlərinə dair məlumat mübadiləsi aparıblar

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.

Telefon danışığı əsnasında dövlət başçıları koronavirus infeksiyasına qarşı mübarizə məqsədilə ölkələrimiz tərəfindən görülən tədbirlərə dair məlumat mübadiləsi aparıblar.

Prezidentlər koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Türkiyə və Azərbaycan vətəndaşlarının hava və quru yolu ilə qarşılıqlı səfərlərinin 15 mart saat 00.00-dan etibarən müvəqqəti olaraq dayandırılması barədə razılığa gəliblər.

Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq əlaqələrinin yüksələn xətt üzrə inkişafından məmnunluqlarını ifadə ediblər.

***Prezidentin Mətbuat xidməti***



## Dövlət gənclər siyasəti

# Səmərəli məşğulluğun təminatı

**Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin əsas istiqamətlərindən biri də dayanıqlı iqtisadi inkişafın təmin olunması şəraitində ölkə əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi, əmək ehtiyatlarından səmərəli istifadənin, o cümlədən gənclərin məşğulluğunun təminatıdır.**

Dövlət başçısının 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında da gənclərin məşğulluq imkanlarının genişləndirilməsi və cəmiyyətə inteqrasiyasının təmin edilməsi ölkənin inkişafı üçün əsas prioritet istiqamətlər sırasındadır. Prezident İlham Əliyevin 13 fevral 2020-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş və məşğulluq sahəsində növbəti mühüm irəliləyişlərə imkan yaradan "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"nda da gənclərin məşğulluq imkanlarının artırılmasına yönələn tədbirlər yer alıb. Həmçinin gənclərin peşəyönümünün təşkili məqsədilə ali, orta ixtisas və peşə təhsili müəssisələrində karyera mərkəzlərinin yaradılmasının və karyera məsləhət xidmətlərinin göstərilməsinin dəstəklənməsi sənəddə əksini tapıb.

### Azərbaycan gənclərin məşğulluğu üzrə on lider ölkədən biridir

Azərbaycan dünya miqyasında gənclərin məşğulluğu üzrə BMT-nin elan etdiyi on lider ölkədən biri kimi seçilib. Həmçinin son illərdə Beynəlxalq Əmək Təşkilatının rəsmi saytındakı "Gənclərin Məşğulluq Siyasətləri üzrə İnformasiya Sistemi" bölməsində Azərbaycan gənclərin səmərəli məşğulluğunun təmin olunması məsələləri ilə bağlı dolğun hüquqi bazası, siyasi və praktik iş təcrübəsi, aktiv məşğulluq proqramları barədə məlumatları təqdim olunan ölkələr sırasına daxil edilib.

Gənclərin məşğulluğu sahəsində dövlət siyasətinin uğurlu icrası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən aktiv məşğulluq tədbirlərinin əsas hədəflərindən biridir.

*Ardı 3-cü səh.*

# Sosial izolyasiya prosesi vətəndaşlardan yüksək məsuliyyət tələb edir

## Azərbaycan dövləti əhalinin bütün növ təhlükələrdən etibarlı müdafiəsini təşkil etmək üçün zəruri potensiala malikdir

**Koronavirus infeksiyasının (COVID-19) dünyada geniş yayıldığı, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) qlobal pandemiya elan etidiyi şəraitdə ölkələr əhalisinin sağlamlığının qorunması və virusun yayılmasının qarşısının alınması üçün ciddi tədbirlər həyata keçirməyə başlayıblar.**

Ayrı-ayrı dövlətlərlə təmasların minimallaşdırılması və ya ümumiyyətlə, dayandırılması, ölkə daxilində ictimai həyata və davranışa sərt məhdudiyyətlərin tətbiq edilməsi bir çox ölkələr üçün səciyyəvi hal allıb. Vətəndaşların sağlam həyat şəraitinin, təhlükəsizliyinin təmin edilməsi və hazırkı qlobal problemin təsirindən müdafiəsi Azərbaycan dövləti üçün də ən vacib və prioritet məsələdir.

*Ardı 5-ci səh.*



# Mavi yanacaq ehtiyatları Azərbaycanın beynəlxalq bazarlarda iştirakını genişləndirir

## Prezident İlham ƏLİYEV: "Uzunmüddətli perspektivdə əsas gəlir mənbəyimiz qaz olacaqdır"

**Hazırda Xəzərin Azərbaycan sektorundakı bir sıra perspektiv qaz yataqlarında müxtəlif mərhələlərdə geoloji kəşfiyyat işləri aparılır.**

Bəzi yataqlarda bu işlər ölkəmizlə əvvəlki neft-qaz layihələrində tərəfdaşlıq etmiş şirkətlərlə birgə, bəzilərində isə SOCAR tərəfindən müstəqil surətdə həyata keçirilir. Zəngin mavi yanacaq mənbəyi olan həmin yataqlar böyük ümidlər verir və möhkəm inam yaradır ki, gələcəkdə "Cənub qaz dəhlizi"nin ehtiyat bazası təkcə "Şahdəniz" olmayacaq. Başqa sözlə, təbii qaz ehtiyatlarımız hələ çoxdur və onlar Azərbaycana uzun illər fayda gətirəcək.

Bu ilin fevral ayında "Cənub qaz dəhlizi" Məşvərət Şurasının Bakıda keçirilən VI toplantısındakı nitqində Prezident İlham Əliyev SOCAR-ın Böyük Britaniyanın BP, Fransanın "Total", Norveçin "Equinor" şirkətləri ilə birgə işlədiyi ayrı-ayrı zəngin qaz yataqlarının adlarını çəkmişdir.

*Ardı 3-cü səh.*

**Bahara az qalıb. Torpaq oyanır. Kəndli bol məhsul götürmək üçün tarlaya çıxır. Bu gün Azərbaycanın hər yerində fermerlər vaxtdan səmərəli istifadə etməyə, əkini gücləndirməyə və düzgün aparmağa çalışırlar. Çünki bol məhsulun bünövrəsi indi qoyulur. Atalar demişkən: "Nə əkərsən, onu da biçərsən".**

Neftçala rayonunda bol məhsul götürmək üçün yazlıq bitkilərin əkininə başlanılıb. Bu rayonun fermerləri qısa müddətdə 1578,1 hektarda yazlıq bitkilərin əkinini aparıblar. Həmin sahələrin 1444 hektarı yonca, 94,2 hektarını kartof, 39,9 hektarını tərəvəz bitkisi təşkil edir. Məlum olduğu kimi, pambıqçılıq Neftçala iqtisadiyyatında mühüm rol oynayır. Buna görə də rayon üzrə 6 min 184 hektar sahədə pambıq əkini üçün şumlama aparılaraq hazırlıq işləri görülür. Onu da qeyd edək ki, ötən il rayonda 5087 hektar sahədə pambıq əkilib, 16 min 171,4 ton məhsul toplanılaraq emal müəssisəsinə təhvil verilib.



# Bol məhsulun təməli qoyulur

## Fermer bilir ki, nə əksə, onu da biçəcək

Ağdam rayonunda fermerlər cari ilin yanvar-fevral aylarında payızlıq və yazlıq çoxillik ot bitkilərinin yenidən əkilən sahəsi də daxil olmaqla 1831 hektarda əkin həyata keçiriblər. Bunun 345 hektarını çoxillik otlar, 190 hektarını kartof, 1296 hektarı tərəvəzdir. Bununla yanaşı, rayonda pambıq səpini üçün də hazırlıq işləri görülür.

Prezident İlham Əliyevin təşəbbüsü ilə "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"nın qəbulundan sonra Oğuz və Qax fermerləri tütün əkininə daha çox maraq göstərməyə başladılar.

*Ardı 4-cü səh.*

# İlham Əliyevin liderliyi ilə yaranan "Cənub qaz dəhlizi"

## Bu layihənin tam başa çatdırılması ilə Azərbaycanın qlobal enerji təhlükəsizliyində mövqeləri daha da güclənəcək




*Əvvəli 1-ci səh.*

### Səmərəli əməkdaşlıq formatı

"Cənub qaz dəhlizi" layihəsinin uğurla reallaşmasının əsas səbəbi təbii ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasi-diplomatik fəaliyyətdir. İlham Əliyevin düşünülmüş, yeni dünya sisteminin müasir çağırışlarına cavab verən siyasi kursu Azərbaycanı regionun lider dövlətinə çevirməklə yanaşı, beynəlxalq aləmdə ölkəmizi etibarlı tərəfdaş kimi tanıdır. Bu gün ölkəmiz əməkdaşlıq mərkəzi, regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün geosiyasi məkandır. Bunun nəticəsidir ki, regionu əhatə edən qlobal nəqliyyat dəhlizləri məhz Azərbaycandan keçir. Mötəbər siyasi-hərbi danışıqlar üçün məkan olaraq Bakı seçilir.

Artıq altıncı dəfədir ki, toplantısı keçirilən "Cənub qaz dəhlizi" Məşvərət Şurasının yaradılmasının da təşəbbüskarı Azərbaycandır. Çünki "Cənub qaz dəhlizi" üzrə iştirakçı dövlətlərin, maraqlı tərəflərin, maliyyə institutlarının sayı artdığından görülən işlərin əlaqələndirilməsi zərurəti yaranmışdı. Buna görə Azərbaycan Prezidenti hələ 2015-ci ildə belə bir şuranın yaradılması ideyasını irəli sürdü və Avropa Komissiyası bu təşəbbüsü dəstəklədi.

Təsadüfi deyil ki, Məşvərət Şurasının iclaslarında layihəyə qoşulan ölkələrlə yanaşı, Avropa Komissiyasının da məsul rəhbər şəxsləri iştirak edirlər. Beləliklə, İlham Əliyevin təşəbbüsü sayəsində təsis edilmiş Məşvərət Şurası onun rəhbərliyi və tövsiyələri əsasında səmərəli və çoxtərəfli əməkdaşlıq formatı kimi illər ötdükcə "Cənub qaz dəhlizi" layihəsinin icrasına mühüm töhfələr verib.

Məşvərət Şurasının altıncı toplantısı da uğurlu əməkdaşlıq formatının yaradıldığını göstərir. Toplantıda buna toxunan Prezident İlham Əliyev deyib: "Bu əməkdaşlıq formatının təşəbbüskarı olaraq Azərbaycan böyük qürur hissi keçirir ki, illər ərzində Məşvərət Şurası nəhəng "Cənub qaz dəhlizi" layihəsinin icrasında bizim səylərimizi gücləndirən çox səmərəli işçi mexanizmə çevrilmişdir".

### "Cənub qaz dəhlizi" Azərbaycanın mənafelərinə uğurla xidmət edəcək

"Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısı bir daha təsdiqlədi ki, Avropa İttifaqı və tərəfdaş ölkələr Azərbaycanın təşəbbüsləri ilə ərsəyə gələn bu enerji layihəsinin tam gücü ilə işə salınmasına son dərəcə böyük maraqla yanaşırlar. Diqqəti çəkən başqa bir məqam toplantıda iştirak edən dövlətlərin sayının artmasıdır. Belə ki, son toplantıda "Cənub qaz dəhlizi" üzrə tərəfdaş ölkələrin yüksək səviyyəli hökumət rəsmiləri ilə yanaşı, dəhlizin ikinci fazasında layihəyə qoşulmaq niyyətində olan Balkan ölkələrinin - Monteneqro və Xorvatiyanın, o cümlədən Məşvərət Şurasının toplantılarında iştirakları ilə layihəyə maraqlarını və böyük əhəmiyyət verdiklərini nümayiş etdirən Türkmənistan, Serbiya, Rumıniya və Macarıstan hökumətləri nümayəndələri iştirak edirdilər.

Avropa ölkələrinin enerji təminatında yeni imkanlar açacaq "Cənub qaz dəhlizi"nin işə salınmasına lap az qalıb. Bu kəmər yeni alternativ marşrutdan istifadə etməklə milyonlarla insanı sərfəli enerji ilə təmin etməyə şərait yaradacaq. Həmçinin dəhliz boyunca yerləşən ölkələrdə iqtisadi inkişafa əlavə dividentlər gətirəcək. Ən əsası ilk dəfə Xəzər qazını Avropaya daşıyacaq bu dəhliz uzun bir tarixi dövr ərzində Azərbaycan dövlətinin, xalqımızın maraq və mənafelərinə uğurla xidmət edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Yeni parlamentin qarşısında yeni vəzifələr dayanır

## İslahatların dərinləşməsinə töhfə verən qanunlar qəbul edilməlidir

**Martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində Prezident İlham Əliyev 2018-ci ildən başlayaraq islahatların yeni mərhələsinin ardıcıl olaraq icra edildiyini, yeniliklərin bütün istiqamətlərdə konseptual və struktur xarakterli olduğunu bəyan etdi.**



Dövlət başçısı aparılan islahatların dayanıqlı və davamlı olması üçün Prezident Administrasiyasında, Nazirlər Kabinetində və nazirliklərdə yeni şöbələrin və yeni tərkiblərin formalaşdığını, daha operativ və fəal, daha çevik idarəetmə sisteminin qurulduğunu, bir çox yeni strukturların yaradıldığını, yerli icra orqanlarında islahatların müntəzəm tətbiq ediləcəyini, bundan sonra da mərkəzi, yerli icra orqanlarında və bütün dövlət qurumlarında təmizləmə işlərinin aparılacağını bildirdi. Ölkə rəhbəri dövlət işində işləyənlərin niyyətinin və əməllərinin dürüst olmasının zəruriliyini tələb kimi qarşıya qoydu.

Prezident nitqində həmçinin Milli Məclisin yeni seçilən deputat korpusuna islahatlara təkan verməli olduqlarını, qanunvericilik sahəsində islalahatların dərinləşdirilməsinin və hər bir deputatın fəaliyyətinin bu məcraya yönəlməsinin başlıca məqsəd olmasını vurğuladı. Dövlət başçısının əsas tövsiyəsi odur ki, daha çox keyfiyyətə, mövcud olan qanunların təkmilləşdirilməsinə diqqət yetirilsin: "Baxın, görün, qəbul olunmuş qanunlar icra edilir, yoxsa edilmir, bu qanunları pozurlar, yoxsa pozmurlar. Əgər belə hallar aşkarlanarsa, onda əlbəttə ki, ciddi cəza tədbirləri görülməlidir".

Ölkə üçün bütün istiqamətlərdə islahatların dərinləşməsi vacibdir, bu isə öz növbəsində qanunvericilik bazasının zamanın tələblərinə uzlaşdırılmasını və müasirləşdirilməsini aktuallaşdırır. Bu, mürəkkəb, vaxt aparan və yeni intellektual biliklərin, müasir təcrübənin geniş tətbiqini tələb edən uzun və sistemli islahatlar prosesidir. Müasir dünya düzənində iqtisadi, siyasi və hərbi situasiyalar gözlənilmədən müxtəlif istiqamətlərdə inkişaf edir, yeni çağırışlar, yeni problemlər çıxılmaz vəziyyətlərin, planetar miqyasda şok effekti yaradan hadisələrin baş verməsinə səbəb olur. Hətta supergüclər belə çıxış yollarını tapmaqda çətinlik çəkirlər.

Dövlət başçısı məhz bu amillərin ciddiliyini əsas götürərək belə hesab edir ki, qanunlara yaradıcı münasibət sərgiləmək, onları müasir çağırışlar prizmasında nəzərdən keçirmək zəruridir: "Yeni qəbul ediləcək qanunların əsas mahiyyəti islahatları dərinləşdirməkdir. Ona görə qeyd etdiyim kimi, siyasi sistemin formalaşdırılması və gücləndirilməsi üçün qanunvericilik təşəbbüsləri, əlbəttə ki, lazım olacaq, iqtisadi islahatlarımızın dərinləşməsi işinə töhfə verən qanunlar qəbul edilməlidir".

Dövlət başçısı milli-mənəvi dəyərlərin, ənənələrin qorunması və informasiya mühafizəsinin vacibliyi məsələsinə də toxundu.

Qeyd edildi ki, Azərbaycan müstəqil siyasət yeridən, heç kimin qarşısında baş əyməyən dövlət kimi qara piar kampaniyası, yalan, böhtan, uydurma, iftira üzərində qurulmuş kampaniyalarla üzləşib. Bu baxımdan informasiya təhlükəsizliyi ilə əlaqədar qanunvericilikdə yeni yanaşmalar əksini tapmalıdır. Ədalətli sosial siyasət, şəffaflığın təmin edilməsi, gizli iqtisadiyyatla aparılan ciddi mübarizəyə qanunvericilik dəstək verməlidir. Gənclər siyasəti, onların fəallığının artması, vətənpərvərlik və milli ruhda tərbiyə edilməsi də qanunla müdafiə olunmalıdır.

Bütün bu məsələlərin sürətlə və zamanında həll olunması üçün parlamentin yeni deputat korpusunun fəallığı vacibdir. Artıq əvvəllər olduğu kimi, bəzi deputatların seçicilərindən ayrı düşməsi, problemlərlə maraqlanmaması, şəxsi qayğılarını həll etməsi, qohumlarını vəzifələrə yerləşdirməsi, torpaq sahələri əldə etməsi və hansısa biznesə dəstək göstərməsinə göz yumulmayacaq: "Ona görə yeni tərkibdə formalaşan Milli Məclis mənəvi cəhətdən qüsursuz olmalıdır. Çünki bizim əsas islahatlarımızın mahiyyəti də budur. Əgər bizim vətəndaşlar yaxından baxsalar görərlər ki, siyasi sahədə, struktur islahatları, kadr islahatları, vəzifələrə gətirilən kadrlar təmizdirlər. Yəni onların arxasında heç bir, necə deyərlər, mənfi iz yoxdur. Milli Məclis də, onun deputatları da bu meyarlara cavab verməlidirlər. Sabah siz xalq qarşısında cavab verməli olacaqsınız" - deməklə Prezident bir daha güzəştsiz mövqe nümayiş etdirdi.

Beynəlxalq fəaliyyətlə bağlı deputatların fəallığı artırılmalı, turizm məzmunlu səfərlərə son qoyulmalı, səmərəliyin artırılması önə çəkilməlidir. Bizə qarşı əsassız yanaşma sərgiləyən, ittihamlar irəli sürən beynəlxalq qurumlarla mübarizə daim gündəmdə olmalıdır. Prezident İlham Əliyev parlamentin iqtisadi sahədə fəaliyyətini gücləndirməsi üçün tövsiyələrini verdi və yeni tələblərini səsləndirdi. Bildirdi ki, görülən işlərin hesabatlarının dinlənilməsi parlamentin fəaliyyətində əksini tapmalıdır: "Çünki bu, həm hökumət üzvlərinin məsuliyyətini artıracaq, həm parlamentin rolu artacaq, - mən istəyirəm ki, Azərbaycanda parlamentin rolu və təsir imkanları artsın, - həm də ümumi işimizə müsbət təsir göstərəcək. Çünki məsuliyyət ən vacib məsələlərdən biridir. Məsuliyyət və nəzarət. Harada ki, bu yoxdur, heç bir iş getməyəcək. Əksinə, çox mənfi mənzərə ilə üzləşə bilərik. Ona görə bu da bir nəzarət mexanizmi olmalıdır".

Məhz tələbkarlıq, nəzarətin güclənməsi, korrupsiya ilə mübarizənin dərinləşməsi iqtisadi səmərəliyi artırır, xalq iqtidar münasibətlərini yeni mərhələyə qaldırır. Azərbaycan müstəqilliyinin ilk onilliklərində ən ciddi iqtisadi uğurlara imza atan ölkədir. Nailiyyətlərimizin dünya miqyasında tayı-bərabəri yoxdur. Azərbaycan Prezidenti xitabət kürsüsündən deputatlara sualla müraciət etdi və cavabını da özü səsləndirdi: "...Hansı ölkə 16 il ərzində öz iqtisadiyyatını 3,4 dəfə artıra bilib? Ondan sonra yoxsulluq 50 faizə yaxın idi, indi 4,8 faizdir və daha da aşağı düşəcək. Çünki maaşlar, pensiyalar artır və artırılacaq, müavinətlər də həmçinin. Xarici borc ümumi daxili məhsulun 17 faizinə bərabərdir. Bu, çox aşağı göstəricidir. İnkişaf etmiş bəzi ölkələrdə bu, 100 faizdən çoxdur. Amma ondan daha önəmli məsələ odur ki, valyuta ehtiyatlarımız xarici borcumuzdan altı dəfə çoxdur. Yəni istəsək xarici borcumuzu bir ay ərzində sıfırlaya bilərik. Xarici borcu ödəmək üçün gərək bəzi ölkələrin valyuta ehtiyatları indikindən 50 dəfə artıq olsun".

Azərbaycan həqiqətən də iqtisadi sahədə böyük uğurlara imza ata bildi, sosial sahədə maaşların və pensiyaların on dəfədən çox artımına nail oldu. Məcburi köçkünlərin, şəhid ailələrinin problemlərini həll etməklə yanaşı, üç peyki olan kosmik dövlətə çevrildi. Dünya Astronavtika Konqresinin 2022-ci ildə Bakıda keçirilməsinə nail oldu. Azərbaycan çox çətin geosiyasi vəziyyətdə minimum itkilərlə neft-qaz kəmərlərini - "Cənub qaz dəhlizi"ni başa çatdırmaq üzrədir, bundan əlavə, yeddi ölkə arasında uzunmüddətli beynəlxalq əməkdaşlıq formatı yaradıldı. Nəqliyyatda açıq dənizə çıxışı olmayan Azərbaycan kimi ölkə beynəlxalq nəqliyyat qovşağına çevrilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev bütün qazanılan uğurların gələcək ideyaların reallaşmasına köklndiyini bildirdi: "Bu gün biz müstəqil ölkə kimi yaşayırıq, müstəqil siyasət aparırıq, heç kimin işinə qarışmırıq, heç kimə də imkan vermirik ki, bizim işimizə qarışsın. Əminəm ki, biz bundan sonra da bu müstəqillik və inkişaf yolu ilə gedəcəyik".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## *Operativ Qərargah:* "Profilaktik tədbirlərlə əlaqədar bir sıra strukturlar Novruz bayramındakı qeyri-iş günlərində adi iş rejimində çalışacaq"

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, koronavirus (COVID-19) xəstəliyinin yayılmasının qarşısının alınması üzrə Azərbaycan hökuməti tərəfindən aparılan profilaktik tədbirlərlə əlaqədar bir sıra strukturlar Novruz bayramındakı qeyri-iş günlərində adi iş rejimində çalışacaq. Həmin strukturlar bunlardır:

- Azərbaycan Respublikası Prezidentinin Administrasiyası
- Azərbaycan Respublikasının Nazirlər Kabineti
- Səhiyyə işçiləri (Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi (TƏBİB), dövlət və özəl səhiyyə müəssisələri)
- Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (o cümlədən Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlikləri)
- Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
- Azərbaycan Respublikasının Baş Prokurorluğu
- Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti
- Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti
- Azərbaycan Respublikasının Müdafiə Nazirliyi
- Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti
- Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi
- Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
- Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
- Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
- Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi
- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
- Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti
- Azərbaycan Respublikasının şəhər və rayon icra hakimiyyəti orqanları
- Azərbaycan Respublikasının Mərkəzi Bankı
- "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti
- "Azərsu" Açıq Səhmdar Cəmiyyəti
- "Azəriqaz" İstehsalat Birliyi
- "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti
- Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR)
- "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti

Siyahıda qeyd olunan strukturlardan başqa gündəlik həyat təminatı əhəmiyyəti olan digər qurumların Novruz bayramı günlərində iş rejiminin dəyişdirilməsi zərurəti yarandıqda əlavə məlumat veriləcək.

## *Mikayıl CABBAROV:* "Azərbaycan hökuməti iqtisadi vəziyyətə nəzarət etmək üçün bütün vasitələrə malikdir"

"Azərbaycanda əhalinin gündəlik tələbat malları, o cümlədən qida məhsulları tələbatının ödənilməsi ilə bağlı heç bir problem yoxdur". AZƏRTAC xəbər verir ki, bu fikri İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib.



Nazir deyib ki, hazırda ticarət şəbəkələrində, mağazalarda və anbarlarda gündəlik tələbat malları, o cümlədən ərzaq məhsulları ilə bağlı kifayət qədər ehtiyat mövcuddur və panikaya heç bir əsas yoxdur. Bu gün ölkədə bütün əsas məhsullar üzrə ehtiyatlar var. Mal və məhsulların kifayət qədər ehtiyatı mövcuddur. Alınan mallar yeniləri ilə əvəz olunur və olunacaq.

Mikayıl Cabbarov iqtisadi təhlükəsizlik məsələlərinin Azərbaycan hökumətinin diqqət mərkəzində olduğunu vurğulayıb. O əlavə edib ki, ölkənin ərzaq təhlükəsizliyinin etibarlı təmin edilməsi üçün ehtiyatlar mütəmadi monitorinq olunaraq qiymətləndirilib. Hazırda koronavirus təhlükəsi ilə əlaqədar ölkəmizin sərhədlərində tətbiq edilən məhdudiyyətlər yük daşımalarına şamil edilmir.

Nazir hökumətin iqtisadi sahədə vəziyyətə nəzarət etmək üçün bütün vasitələrə malik olduğunu vurğulayıb. O qeyd edib ki, yerli istehsalın artırılması üçün dövlət tərəfindən əlavə dəstək tədbirləri həyata keçiriləcək.

Son günlər istehlak bazarında tibbi vasitələrə, tibbi spirt və maskalara tələbatın artmasına gəlincə, Mikayıl Cabbarov hazırda bu məhsulların təchizatında heç bir problemin olmadığını, yaxın həftələrdə Azərbaycanda tibbi maskaların istehsalı üzrə yeni müəssisənin işə düşəcəyini bildirib.

## Qərargah alış-veriş mərkəzlərinin fəaliyyətinə dair qaydaları açıqlayıb

Koronavirus infeksiyası (COVID-19) ilə mübarizə sahəsində alış-veriş mərkəzlərinin fəaliyyətinə dair qaydalar açıqlanıb. Bu barədə AZƏRTAC-a Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

Qeyd olunub ki, bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması qərara alınıb və 14 mart 2020-ci il saat 00:00-dan etibarən ölkə ərazisində bəzi sosial izolyasiya tədbirlərinin tətbiqi nəzərdə tutulub. Həmin tədbirlərdə ölkə üzrə fəaliyyət göstərən alış-veriş mərkəzlərinin fəaliyyətinin müvafiq qaydalara riayət olunaraq həyata keçiriləcəyi qeyd edilir. Bu istiqamətdə müvafiq dövlət strukturları arasında aparılmış müzakirələr əsasında koronavirus infeksiyası ilə mübarizə çərçivəsində alış-veriş mərkəzlərinin fəaliyyətini tənzimləyən aşağıdakı qaydalar müəyyən olunur:

1. Əyləncə məkanlarının, xüsusilə uşaq əyləncə məkanlarının fəaliyyətinin dayandırılması;
2. Alış-veriş mərkəzlərində yerləşən ictimai iaşə obyektlərində (kafe və restoranlarda) Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən müəyyən olunmuş profilaktik metodiki göstərişlərə (http://afsa.gov.az/uploads/info/warning/food_pdf1584199415.pdf) riayət edilməsi;
3. Girişlərdə hərarət ölçmə qurğularının istifadəsilə girişdə bütün daxil olanların hərarətinin yoxlanılması (parklanma girişləri daxil olmaqla);
4. Xidmət göstərən personalın xüsusi geyim vasitələri ilə təmin edilməsi;
5. Havalandırma sistemlərinin işlək olması;
6. Sabun və su əl yuma stansiyaları mövcud olmayan yerlərdə alkoqol əsaslı dezinfeksiya dispenserlərinin quraşdırılması və saxlanması;
7. İş saatlarında dezinfeksiya tədbirlərinin mütəmadi həyata keçirilməsi (əsasən işlək sahələrdə giriş-çıxış, lift, kassa və s.);
8. Qeyri-iş saatlarında tam dezinfeksiya tədbirlərinin görülməsi;
9. Alış-veriş mərkəzlərində mütəmadi gigiyena qaydaları ilə bağlı səsli anonsların verilməsi;
10. Mütəmadi olaraq maarifləndirici videoçarxların nümayiş etdirilməsi, giriş və çıxışlarda WHO COVID-19 üzrə məsləhətləri ilə bağlı panoların vurulması;
11. Evlərə ərzaqların çatdırılması xidmətlərinin işə salınması;
12. Kassa qarşısında və ya digər yerlərdə növbələrin vətəndaşlar arasında ikimetrlik məsafə saxlanılmaqla təşkil edilməsi;
13. Vətəndaşlara SMS vasitəsilə atılacaq addımlar və mövcud məhdudiyyətlər barədə əvvəlcədən xəbər verilməsi;
14. Yerli səhiyyə şöbələri ilə mütəmadi əlaqələrin yaradılması və yerli ictimai göstərişlərə əməl edilməsi;
15. Atılacaq addımlarla bağlı alış-veriş mərkəzlərinin bütün əməkdaşlarının təlimatlandırılması (məlumat bürosu və təchizat əməkdaşları, xadimələr və s.);
16. Xəstə olan əməkdaşların əmək fəaliyyətinin müvəqqəti məhdudlaşdırılması;
17. Bu tədbirlərə əməl edilmədiyi təqdirdə cavabdeh şəxslər barədə ciddi tədbirlərin görülməsi.

## "Azərbaycan Hava Yolları" bir sıra istiqamətlər üzrə uçuşları müvəqqəti olaraq dayandırır

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus (COVID-19) infeksiyasının qlobal xarakterli pandemiya elan olunduğu nəzərə alınaraq, COVID-19 virusunun ölkə ərazisində yayılmasının qarşısının alınması tədbirləri çərçivəsində 15 mart tarixindən etibarən "Azərbaycan Hava Yolları"nın Bakı-Paris-Bakı, Bakı-Berlin-Bakı, Bakı-Nursultan-Bakı, Bakı-Aktau-Bakı, Bakı-Almatı-Bakı istiqamətləri üzrə uçuşları müvəqqəti olaraq dayandırılır. Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

"Operativ Qərargahın 2020-ci il 12 mart tarixli məlumatına əlavə olaraq bildiririk ki, Azərbaycan Respublikasının səfirlik və baş konsulluqları tərəfindən ölkəyə giriş vizalarının rəsmiləşdirilməsi müvəqqəti olaraq məhdudlaşdırılmış əsasda veriləcək", - deyə məlumatda qeyd edilir.

***"Azərbaycan"***

# Dövlət gənclər siyasəti

# Səmərəli məşğulluğun təminatı

Əvvəli 1-ci səh.

Bu istiqamətdə aparılan işlərin davamı olaraq, 2019-cu ildə nazirlik yanında Dövlət Məşğulluq Xidmətinin münasib işlərlə təmin etdiyi 103 028 işsiz və işaxtaran şəxslərdən 23,3 faizi və ya 24 033 nəfərini məhz gənclər təşkil edib.

Ötən il xidmətin xətti ilə 3168 nəfər peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb edilib ki, həmin şəxslərdən 1358-i gənclərdən ibarət olub. Gənclərin düzgün peşə seçimi onların gələcəkdə uğurlu əmək fəaliyyəti üçün mühüm önəm kəsb edir. Bu məqsədlə xidmət tərəfindən 2019-cu ildə 135 minə yaxın gəncə peşəyönümü məsləhət xidmətləri göstərilib.

Prezident İlham Əliyevin sağlamlıq imkanları məhdud gənclərə diqqət və qayğısının növbəti təzahürü kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzinin yaradılması həmin gənclərin peşə reabilitasiyası istiqamətində tədbirlərin xeyli güclənməsinə şərait yaradıb. Mərkəzdə ötən dövrdə ölkəmizin müxtəlif bölgələri üzrə 1850 nəfər sağlamlıq imkanları məhdud gənc peşə hazırlığına cəlb olunub. Hazırda isə burada 105 gənc təlimdədir.



### "Məzun evi"

Ölkə rəhbərinin dövlət uşaq müəssisələrini bitirən, valideyn himayəsindən məhrum, kimsəsiz gənclərin yaşayış sahəsi ilə təmin olunmasına diqqət və qayğısı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu təbəqədən olan gənclər üçün son illərdə Abşeron rayonunun Masazır qəsəbəsində çoxmənzilli yaşayış binalarından ibarət "Məzun evi" Sosial Müəssisəsi yaradılıb. Gənclər ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun "Məzun evi" Sosial Müəssisəsinə köçürüləndən sonra ilk növbədə onların aktiv məşğulluq tədbirlərinə cəlb edilmələri, məşğulluqlarının təminatı istiqamətində müvafiq işlər görülüb. Müəssisədəki ştat vahidlərində, habelə ictimai-iaşə xidməti sahələrində elə burada yaşayan gənclər çalışır. Xalça və tikiş sexləri də yaradılıb ki, həmin müəssisələrdə də elə sakinlərin özləri işlə təmin olunublar. Eyni zamanda "Məzun evi"ndən yaxın ərazilərdəki müxtəlif müəssisələrdə sakinlərin münasib işlərlə təminatı həyata keçirilib.

Prezident İlham Əliyevin tapşırığına əsasən icra olunan özünüməşğulluq proqramının əhatə dairəsi 2017-ci ilə nisbətən 2018-ci ildə 6,5 dəfə genişləndirilib və həmin il 7267 nəfər özünüməşğulluğa cəlb edilərək onlara verilmiş aktivlər hesabına ailə təsərrüfatlarını yaradıblar. 2019-cu ildə isə özünüməşğulluq proqramına 10 354 nəfər cəlb edilib və müvafiq təlimləri başa vuraraq, öz biznes planlarını uğurla müdafiə ediblər. Onlar mal və materiallar formasında öz aktivlərini alaraq ailə təsərrüfatlarını yaradıblar. Özünüməşğulluq proqramının iştirakçılarının da bir hissəsi məhz gənclərdir. 2019-cu ildə də proqrama cəlb olunaraq kiçik ailə təsərrüfatlarını quranların 1426-sı gənclər olub.

### Həssas qruplar üçün layiqli iş yerləri

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə BMT-nin İnkişaf Proqramının (BMTİP) birgə icra etdiyi "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi çərçivəsində 500 nəfər əlilliyi olan şəxsin özünüməşğulluq fəaliyyəti müstəvisində dayanıqlı biznes qurmalarına dəstək verilməsi işləri aparılır. Həmin insanlardan da mühüm bir hissəsi məhz gənclərdir. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə birgə icra olunan "Sosial Bağlar" layihəsi özünüməşğulluq proqramının genişlənməsinə mühüm dəstəkdir. Layihə çərçivəsində ölkənin müxtəlif rayonlarında 2018-2019-cu illərdə 400-ə yaxın şəxs üçün intensiv meyvə bağlarından ibarət ailə təsərrüfatları yaradılıb. Onlardan bir qismini gənclər təşkil edir.

Nazirlik 2020-ci ildə 11 min nəfərin proqrama cəlb olunmasını planlaşdırıb. Həmçinin özünüməşğulluq proqramının genişləndirilməsində Dünya Bankı ilə artıq bu ildən əməkdaşlığa başlanacaq. Dünya Bankının "Azərbaycanda məşğulluğa dəstək layihəsi" üzrə 2020-2025-ci illərdə əlavə olaraq 22 min işsiz şəxs bu proqrama cəlb olunacaq. Eyni zamanda, özəl banklar da həmin sahədə öz dəstəyini verməyə hazırlaşır və indi bununla bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Banklar Assosiasiyası arasında həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə kömək göstərilməsi sahəsində əməkdaşlığa dair memorandum imzalanıb. Sənəd Prezident İlham Əliyevin həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə ölkədə fəaliyyət göstərən banklar tərəfindən kömək göstərilməsi ilə bağlı sosial məsuliyyətin bölüşdürülməsi təşəbbüsünə dəstək vermək məqsədi daşıyır.

### Gənclərin əmək bazarına çıxışı tələbə və məzunları da əhatə edir

Ali təhsil müəssisələrində məzun və tələbələrin əmək bazarına inteqrasiyasına, onların işəgötürənlərlə ilkin əlaqələrinin və gələcək karyeralarının qurulmasına dəstək məqsədilə "Karyerada ilk addım" devizi altında aktiv məşğulluq tədbirləri təşkil olunur. Bu tədbirlərdə tələbə və məzunlara öz ixtisas və bacarıq səviyyələrini işəgötürənlərə təqdim etmələri, eyni zamanda işəgötürənlərin müasir tələblərə cavab verən ixtisaslı kadrlar seçmələri üçün şərait yaradılır. 2019-cu ildə də 14 ali təhsil müəssisəsində belə tədbirlər təşkil olunub.

Gənclər arasında məşğulluq səviyyəsinin artırılması yönündə həyata keçirilən aktiv məşğulluq tədbirlərinin təşkilində qabaqcıl beynəlxalq təcrübədən irəli gələn innovativ yanaşmaların tətbiqinə xüsusi önəm verilir. BMT İnkişaf Proqramı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə layihəsi olan və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) dəstəyi ilə icra olunan layihə SYSLAB (Yenilik və Məşğulluq üzrə Sistem Laboratoriyası) metodologiyası üzrə gənclərin əmək bazarına inteqrasiyasının dəstəklənməsinə yönəlib. Layihə çərçivəsində ötən dövrdə Bakı, Sumqayıt, Gəncə, Masallı, Zaqatala şəhərlərində yaradılan SYSLAB Təlim-Tədris mərkəzlərində işaxtaran ali təhsilli gənclərdən ibarət ümumilikdə 1000-dən çox gənc təlimlər keçib. Təlimlər zamanı onlarda müasir üsullar, innovativ metodlar əsasında iş axtarışı bacarıqları formalaşdırılıb və nəticədə həmin gənclərdən 80 faizə yaxını yeni qazandıqları bacarıqlardan istifadə edərək müxtəlif dövlət və özəl müəssisələrdə münasib iş yerləri ilə təmin ediliblər.

**İ.ƏLİYEVA,**
**"Azərbaycan"**

# Müdafiə naziri xidməti müşavirə keçirib

Martın 14-də Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəisləri, birlik komandirləri, eləcə də videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlərin də cəlb olunması ilə xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin altıncı çağırış Milli Məclisin ilk iclasında çıxışında səsləndirdiyi məqamları bir daha müşavirə iştirakçılarına xatırladan Müdafiə naziri dövlət başçısının rəhbərliyi ilə Azərbaycan Ordusunda həyata keçirilən islahatların davam etdirilməsi və qarşıda duran vəzifələrin icrası ilə bağlı bir sıra tapşırıqları diqqətə çatdırıb.

General-polkovnik Z.Həsənov müşavirədə şəxsi heyətin Vətənə, dövlətə və Ali Baş Komandana misilsiz sədaqət, milli-mənəvi dəyərlər, vətənpərvərlik, milli köklərə bağlılıq və döyüş ruhunda tərbiyə edilməsinin, hərbi intizamın möhkəmləndirilməsinin vacibliyini qeyd edib.



Cəbhədəki əməliyyat şəraitini təhlil edən Müdafiə naziri düşmənin ehtimal olunan təxribatlarının qarşısının dərhal alınması məqsədilə lazımi qüvvə və vasitələrdən istifadə edilməsi, şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi, intensiv döyüş hazırlığı səviyyəsinin artırılması üçün hərbi hissələrdə, əsasən ön xətdə yerləşən bölmələrdə keçirilən döyüş hazırlığı tədbirlərinin keyfiyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirilməsi, döyüş növbətçiliyinə cəlb edilən hərbi qulluqçuların sayıqlığının artırılması, həmçinin bölmələrin maddi-texniki təminat imkanlarının daha da genişləndirilməsi ilə bağlı komandir-rəis heyətinə əmr verib.

Cari ayın əvvəlində Azərbaycan Ordusunda keçirilmiş genişmiqyaslı komanda-qərargah təlimlərinin nəticələri barədə danışan nazir döyüş hazırlığı tədbirlərində ən müasir idarəetmə üsullarından istifadənin əhəmiyyətini qeyd edib. O bildirib ki, Türkiyə Silahlı Qüvvələrinin döyüş təcrübəsini öyrənərək ordumuzun hazırlıq planına daxil edilməsi, ikitərəfli hərbi əməkdaşlıq çərçivəsində qarşılıqlı təcrübə mübadiləsi, Türkiyə istehsalı olan müasir silah, hərbi texnika və avadanlıqların alınması bundan sonra da davam etdiriləcək.

Müdafiə naziri bütün hərbi hissə və bölmələrdə silah, döyüş və xüsusi texnikanın istismarının yay mövsümünə keçirilməsi prosesi, hərbi obyektlərin hazırlığının, o cümlədən qış mövsümündən sonra müdafiə zolağı və mühəndis qurğularının vəziyyəti ilə maraqlanıb və müvafiq göstərişlər verib.

Mövsümi yoluxucu xəstəliklər və koronavirus infeksiyasına yoluxma ehtimalının qarşısının alınması məqsədilə ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirlərdən danışan Müdafiə naziri hərbi hissələrdə müvafiq tibbi və sanitar-epidemioloji tədbirlərin gücləndirilməsini tələb edib. Nazir hərbi hissə və müəssisələrdə dezinfeksiya işlərinin gücləndirilmiş rejimdə davam etdirilməsi, hərbi qulluqçuların mütəmadi maarifləndirilməsi, eləcə də şəxsi gigiyena qaydalarına riayət olunmasına diqqətin daha da artırılması, o cümlədən kütləvi tədbirlərin keçirilməsinin məhdudlaşdırılması və valideynlərlə görüşlərin müvəqqəti dayandırılması barədə bir daha göstəriş verib.

Müşavirənin sonunda Müdafiə naziri rəhbər heyətə xidməti və döyüş fəaliyyəti ilə bağlı bir sıra tapşırıqlar verib.

# Mavi yanacaq ehtiyatları Azərbaycanın beynəlxalq bazarlarda iştirakını genişləndirir



**Prezident İlham ƏLİYEV:** "Uzunmüddətli perspektivdə əsas gəlir mənbəyimiz qaz olacaqdır"

Əvvəli 1-ci səh.

"Bizim təsdiqlənmiş qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Proqnozlaşdırılan ehtiyatlar 3 trilyon kubmetr civarındadır. Ona görə də Azərbaycan 100 ildən çox müddət üçün karbohidrogen ehtiyatlarının etibarlı təchizatçısı olacaq" deyən dövlət başçısı hazırda ayrı-ayrı strukturlarda aparılan işlərdən də bəhs etmişdir.

Onların biri "Şəfəq-Asiman" blokudur. Burada cari il yanvarın 13-də ilk kəşfiyyat quyusunun qazılmasına başlanıb. Quyunun 9 aya qazılacağı planlaşdırılır.

Mütəxəssislərin fikrincə, strukturda bol qaz ehtiyatları aşkar oluna bilər.

Bu blok Bakıdan təqribən 125 kilometr aralıda cənub-şərqdə yerləşir. Onu Xəzərdə "Şahdəniz" qaz-kondensat yatağından 60 kilometrlik, qurudakı Səngəçal terminalından 145 kilometrlik məsafə ayırır.

"Şəfəq-Asiman" dənizin dərinsulu hissəsində yerləşir. Burada suyun dərinliyi 600-800 metr arasında dəyişir. Kollektorun dərinliyi isə 7000 metrə çatır. Blok təxminən 1100 kvadratkilometr ərazini əhatə edir. Burada son illərədək heç bir geoloji kəşfiyyat işləri aparılmayıb. Lakin 2010-cu ilin oktyabr ayında Bakıda SOCAR və BP arasında strukturun birgə geoloji kəşfiyyatı və işlənməsinə dair Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) imzalanıb.

"Gilavar" seysmik tədqiqat gəmisinin mütəxəssisləri strukturda aparılan üçölçülü seysmik məlumatların əldə olunması proqramını başa çatdırıblar. Sonra həmin məlumatların emalı aparılıb. 2015-ci ildə məlumatların interpretasiyası yekunlaşıb və ilk kəşfiyyat quyusunun planlaşdırılmasına həmin vaxtdan başlanıb.

"Şəfəq-Asiman" və digər bir blok - D230 bloku üzrə HPBS 2018-ci ildə imzalanıb. Sazişə həmin il aprelin 26-da Londonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Tereza Meyin iştirakı ilə imza atılıb.

D230 bloku Xəzər dənizinin Azərbaycan sektorunun Şimali Abşeron hövzəsində yerləşir. Bloku sahildən Bakının şimal-şərq istiqamətində təxminən 135 kilometr məsafə ayırır. D230 təxminən 3200 kvadratkilometr ərazini əhatə edir. Blokun məhsuldar laylarının gözlənilən dərinliyi təxminən 3500 metrdir. Seysmik tədqiqatların suyun 100-800 metr dərinliklərində strukturun bütün ərazisini əhatə edəcəyi gözlənilir.

Digər layihələrdən - AÇG-dən və "Şahdəniz"dən fərqli olaraq adıçəkilən iki strukturda geniş tərəfdaşlar qrupu iştirak etmir. İştirak payları BP və SOCAR arasında bölünür. Bunun üstünlüyü ondadır ki, hər iki şirkət bir-birindən ən yaxşı təcrübəni əxz edir, öyrənir və istər sözügedən, istərsə də digər müqavilələri yerinə yetirərkən topladıqları təcrübədən geniş istifadə edir.

Prezident İlham Əliyev Məşvərət Şurasının toplantısında digər strukturların da böyük perspektivləri olduğunu bildirmişdir. SOCAR-ın BP ilə birgə işlədiyi "Dayazsulu Abşeron" strukturunun böyük potensiala malik olduğunu demişdir. Fransanın "Total" şirkəti ilə birgə işlənən "Abşeron"un və Norveçin "Equinor" şirkəti ilə tərəfdaşlıqda işlənən "Qarabağ"ın zəngin ehtiyatları olduğunu qeyd etmişdir. SOCAR-ın "Ümid-Babək" yatağında hazırda fəal iş apardığını bildirmişdir. Eyni zamanda "Azəri-Çıraq-Günəşli" yataqlarında "dərin qaz" adlandırılan böyük ehtiyatlar var. Onların istismarı da uzaqda deyil.

Keçən ilin sonunda Prezident İlham Əliyev yerli jurnalistlərə müsahibəsində bildirmişdir ki, uzunmüddətli perspektivdə bizim əsas gəlir mənbəyimiz təbii qaz olacaqdır.

Beləliklə, perspektiv strukturlarda olan ehtiyatların çıxarılması Azərbaycanın beynəlxalq bazarlarda iştirakını genişləndirəcək, ixracı şaxələndirəcək, xalqın güzəranını daha da yaxşılaşdıracaq və dövlətimizi gücləndirəcək.

**Flora SADIQLI,**
**"Azərbaycan"**

# Müasirliklə təcrübənin vəhdəti

Əvvəli 1-ci səh.

Ölkə rəhbəri də hesab edir ki, yaşlı nəslin təcrübəsi ilə müasir gənclərin vəhdəti ölkəyə, idarəçilik sisteminə daha çox səmərə verə bilər. Yəni məqsəd yaşlı nəslin vəzifədən uzaqlaşdırılması və ya yalnız gənclərin vəzifələrə gətirilməsi deyil. Əsas məqsəd işinin öhdəsindən gələ bilməyənlərin, vəzifəsini düzgün yerinə yetirməyənlərin işdən uzaqlaşdırılmasıdır.

Azərbaycan Prezidenti hər zaman qeyd edib ki, hazırda ölkəmizdə çox təcrübəli, işinin öhdəsindən yüksək səviyyədə gələn yaşlı kadrlar var və gənc nəsil onların təcrübəsindən bəhrələnməli, öyrənməlidir.

Prezident yeni kadrlardan gözləntilərini, onların idarəçilikdə daha çox hansı proseslərə üstünlük verməli olduqlarını da açıqladı - vətəndaşlarla bir yerdə olmaq, daim xalqın qayğıları ilə yaşamaq, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizə aparmaq, rayonların sosial-iqtisadi inkişafına töhfə vermək, vətəndaş məmnunluğunu, həmçinin rayonların inkişafı üçün daxili və xarici investisiyaların cəlb edilməsini təmin etmək.

### Prezidentin yeni icra məmurlarından tələbləri və gözləntiləri...

Əgər Prezidentin bu tapşırıqları layiqincə yerinə yetirilərsə, həm dövlət, həm də ölkə vətəndaşları onların fəaliyyətindən razı qalacaq. Yox, əgər bu etimad doğrulmasa, ilk növbədə cəmiyyətdə məyusluq yaranacaq. Ona görə də yeni təyin edilmiş icra başçıları rayonlarda vəziyyəti təhlil etməli, insanları narahat edən məsələləri ciddi araşdırmalı və onların həlli yolları ilə bağlı təkliflər hazırlamalıdırlar.

Bu görüşdə dövlət başçısı son illər ölkədə korrupsiya və rüşvətxorluğa qarşı ən ciddi formada aparılan mübarizədən də söz açaraq bildirdi ki, bu, şüurlu siyasətdir və bundan sonra da davam etdiriləcək: "Qanun qarşısında hamı bərabərdir, heç kim toxunulmaz deyil, heç kimin heç bir xüsusi imtiyazları yoxdur, heç kimin keçmiş xidmətləri nəzərə alınmayacaq. Hər kəs keçmiş xidmətlərə görə dövlətdən layiqli qiymət alıbdır. Bundan sonra əgər kimsə dövlət işində, xüsusilə icra başçısı vəzifəsində işləmək istəyirsə, bax, bu prinsiplər əsas olmalıdır".

Prezident yeni çağırışların tələbinə uyğun olaraq yeni baxışlı, yeni dünyagörüşlü yanaşmaları özündə təcəssüm etdirən və əvvəlki işində bunu göstərən şəxsləri vəzifəyə təyin edir. Bu proseslər həqiqətən də cənab İlham Əliyevin siyasi əzmkarlığına dəlalət edir. Bütün bunlar isə onu deməyə əsas verir ki, islahatçı Prezidentin verdiyi qərarlar Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verəcək.

Göründüyü kimi, Prezident İlham Əliyevin kadr islahatları davam edir. Bu, ölkə rəhbərinin mütərəqqi islahatlarının tərkib hissəsidir. Azərbaycanda kadr islahatlarına ehtiyacın olduğunu deyən cənab İlham Əliyev bu prosesləri belə dəyərləndirib: "İslahatlar təkmilləşmə deməkdir, islahatlar yeni dövrə uyğunlaşma deməkdir, islahatlar tərəqqi deməkdir. Dünya miqyasında uğurlar əldə etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu nailiyyətlər məhz tərəqqi hesabına əldə edilibdir".

Bu gün həm dünya birliyi, həm də ölkə ictimaiyyəti Azərbaycan Prezidentinin həyata keçirdiyi sosial-iqtisadi, siyasi islahatlara şahidlik edir. Dövlət başçısının güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks islahatlar ölkəmizin ötən il də yeni rekorda imza atmasına imkan yaratdı. Dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunan Dünya Bankının "Doing Business-2019" hesabatı İlham Əliyevi ən islahatçı Prezident kimi dəyərləndirdi. Çünki hesabata əsasən, Azərbaycan dünyanın 10 islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Göründüyü kimi, cənab İlham Əliyevin apardığı kompleks islahatlar ölkəmizə "dünyada ən islahatçı" ölkə imici qazandırmaqla yanaşı, davamlı və tarazlaşdırılmış iqtisadi inkişafı təmin edib.

**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**

# Vətəndaşların qəbulu keçirilib

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən vətəndaşlara yüksək xidmət göstərilməsi, onların müraciətlərinə xüsusi həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyinin rəhbərliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.

Penitensiar Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin yerlərdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi ədliyyə general-leytenantı Ceyhun Həsənov Quba rayonunda Heydər Əliyev Mərkəzində vətəndaşların qəbulunu keçirib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, qeyd olunmuş məsələlərin bir qismi elə yerində həllini tapıb, digər müraciətlər üzrə isə Penitensiar Xidmətin qəbulda iştirak edən aidiyyəti məsul əməkdaşlarına müvafiq tapşırıqlar verilib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## ARDNF zəmanət verir



Məlum olduğu kimi, koronavirusun miqyasının getdikcə daha geniş coğrafiyaya yayılması dünyada iqtisadi inkişafla bağlı qeyri-müəyyənliklərin yaranması və bunun nəticəsində enerji məhsullarına olan tələbin azalması və xam neftin qiymətlərinin kəskin şəkildə aşağı düşməsi ilə müşahidə edilir.

Belə neqativ proseslərin Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) aktivlərinə təsiri, ölkənin valyuta təklifinin formalaşmasında ARDNF-nin rolu və digər bu kimi məsələlər ətrafında çoxsaylı suallar yaranır. Fond bu sualları qruplaşdıraraq onlara cavab vermişdir.

Həmin suallardan biri ölkədə valyuta təklifinin formalaşmasında ARDNF-nin rolu barədədir. Bununla bağlı fond bildirir ki, ARDNF-nin əsas gəlirləri ABŞ dolları ilə ifadə edilən xam neftin və qazın satışından daxilolmalar hesabına formalaşır: "Fondun xərc istiqamətlərində əsas yeri isə dövlət büdcəsinə transfert ilə bağlı öhdəliklər təşkil edir. Bu öhdəlikləri icra etmək üçün ARDNF tərəfindən Mərkəzi Bankın keçirdiyi hərraclar vasitəsilə xarici valyuta, yəni dollar vəsaitləri manata konvertasiya olunur. Bu isə o deməkdir ki, fond tərəfindən böyük məbləğdə dollar mütəmadi olaraq valyuta bazarına çıxarılır".

Digər sual ölkədə maliyyə sabitliyinin qorunmasında, habelə xarici təsirlərə qarşı tədbirlərdə ARDNF-nin rolu haqqındadır. Bu sualla əlaqədar fond qeyd edir ki, ARDNF-nin əsas məqsədlərinə gələcək nəsillər üçün ehtiyat vəsaitin toplanması ilə yanaşı, makroiqtisadi sabitləşdirmə, o cümlədən ölkə iqtisadiyyatının xarici iqtisadi təsirlərə qarşı qorunması da daxildir: "Ötən müddət ərzində ARDNF-də 43 milyard dollardan çox vəsait toplanıb ki, bu da ölkə iqtisadiyyatının ümumi həcminə yaxındır. Əlverişli iqtisadi mühit dövründə artan bu vəsaitlər iqtisadi şoklar zamanı "təhlükəsizlik yastığı", o cümlədən dövlət büdcəsində yarana biləcək fiskal kəsirin örtülməsində istifadə edilir".

"Xam neftin qiymətinin aşağı olması halı davam edərsə, bu, ARDNF-nin dövlət büdcəsinə transfert ilə bağlı öhdəliyinin icrasına necə təsir edəcək" sualının cavabına gəldikdə isə fond bildirir ki, dövlət büdcəsinə transfert ilə bağlı xərclər ARDNF-nin öhdəliyidir və xam neftin qiymətlərindən asılı olmayaraq həmin öhdəlik yerinə yetirilməlidir: "ARDNF-nin 2020-ci il büdcəsində 11,56 milyard manat həcmində büdcə öhdəliyi nəzərdə tutulub ki, manat ilə ifadə edilən bu öhdəliyin icrası üçün fond tərəfindən il ərzində ümumilikdə 6,8 milyard dollar məbləğində xarici valyutanın satışa çıxarılması nəzərdə tutulur. Cari ilin əvvəlindən bugünə qədər satışa ümumilikdə 1,8 milyard dollar və yaxud 3,08 milyard manat həcmində valyuta çıxarılıb. Qalıq öhdəliyin icrası üçün fond tərəfindən 5 milyard dollar məbləğində xarici valyutanın satışa çıxarılması nəzərdə tutulur ki, bu da xarici valyuta ilə bağlı kifayət qədər böyük təklifdir".

Bəs xam neftin qiymətinin aşağı səviyyədə qalmasının davam edəcəyi, yəni ARDNF-nin xərcləri gəlirlərini üstələdiyi halda fond öz yığımı hesabına dövlət büdcəsi qarşısında öhdəliklərini tam və vaxtında yerinə yetirə biləcəkmi? Bu sualın cavabında isə qeyd olunur ki, ARDNF-nin vəsaitlərinin xüsusi çəkisində hər zaman kifayət qədər likvid, yəni qısa müddət ərzində asanlıqla nağdlaşdırıla biləcək aktivlər mövcuddur. Hazırda əhəmiyyətli paya malik olan bu vəsaitlər ARDNF-nin büdcə öhdəliklərinə tam əməl edilməsinin ən böyük təminatıdır.

Bu gün dünya maliyyə bazarlarında baş verənlərin ARDNF-də toplanan vəsaitlərin təsirinə gəldikdə isə qeyd olunur ki, ARDNF-nin gələcək nəsillər üçün yığım funksiyası ilə bərabər ölkə iqtisadiyyatının xarici təhdidlərə qarşı mühüm sığorta rolu da var: "Təbii ki, fondun investisiya strategiyası formalaşdırılarkən bu önəmli vəzifələr tarazlaşdırılmış şəkildə nəzərə alınır. Bununla yanaşı, iqtisadi qeyri-müəyyənliklərin birbaşa maliyyə bazarlarına təsir göstərməsinə baxmayaraq, həmin təsirlər müxtəlif investisiya aktivlərində fərqli qaydada özünü büruzə verir. Belə ki, dünya iqtisadiyyatının gələcəyi ilə bağlı davamlı mənfi gözləntilər dərhal birjada kotirovka olunan səhm aktivlərinə öz neqativ təsirini göstərir. Eyni zamanda iqtisadi qeyri-müəyyənliklər dövründə bəzi aktiv növlərinə, o cümlədən istiqrazlara, xüsusilə dövlət istiqrazlarına tələb əhəmiyyətli şəkildə artır ki, bu da onların qiymətlərinə müsbət təsir göstərir. Hazırda ARDNF-nin investisiya portfelində uzunmüddətli dövr ərzində yüksək gəlirlilik nümayiş etdirən və bununla yanaşı yüksək qiymət dəyişkənliyi ilə səciyyələnən səhmlər təxminən 10 faiz paya malikdir. Fondun vəsaitlərində istiqrazların xüsusi çəkisi isə təqribən 70 faiz təşkil edir. ARDNF həmçinin son zamanlar qabaqlayıcı tədbirlər çərçivəsində istiqraz aktiv növünün daxilində dövlət və yüksək reytinqli istiqrazların payını əhəmiyyətli şəkildə artırmışdır. Əlavə olaraq fondun vəsaitlərində qızıl aktivi də yer alır ki, bu da qeyri-müəyyənliklər zamanı sığorta rolunu oynayır. Hazırda bu aktiv növü təqribən 5,4 milyard ABŞ dolları ilə ümumi vəsaitlərin təxminən 12 faizini təşkil edir. Ümumi çəkisi təxminən 101,5 ton təşkil edən qızıl aktivləri ölkəyə gətirilərək ARDNF-nin xüsusi xəzinəsində saxlanılmaqdadır. Fondun vəsaitlərinin valyuta səbətinə gəldikdə isə burada əsas yeri, yəni təxminən 95 faizlik hissəni ABŞ dolları, avro, ingilis funt sterlinqi və yapon yeni kimi əsas ehtiyat valyutaları tutur".

***"Azərbaycan"***

## Bol məhsulun təməli qoyulur

### Fermer bilir ki, nə əksə, onu da biçəcək



*Əvvəli 1-ci səh.*

Səbəb bu növ məhsula tələbatın artması və onun yaxşı qiymətə alınmasıdır. Həmin proqramın qəbulu sayəsində bu rayonlarda tütün istehsalının artırılması üçün mövcud imkanlardan - toxum, texnika, mineral gübrələrdən daha səmərəli istifadə olunur. Əsas məsələ isə tütünün tədarükü, satışı və emalıdır. Çünki fermerlər məhsul əkərkən onları ən çox maraqlandıran da budur. Qeyd edilən proqramın qəbulundan sonra bu sahədə ardıcıllıq yaranıb ki, bu da istehsalçı ilə alıcını qane edir. Belə qarşılıqlı münasibət daha çox sahədə tütünün becərilməsinə imkan yaradır.

Dövlət daim fermerlərin yanındadır. Onlara hər cür dəstək verilir. O cümlədən Oğuz və Qax rayon fermerləri ilə Kənd Təsərrüfatı Nazirliyinin məsul şəxsləri və adıçəkilən rayonların Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssislərinin görüşü də bu məqsədə xidmət edir. Tədbirdə fermerlərlə tütünün qəbulu və emalı müəssisələri şəbəkəsinin genişləndirilməsi, tütünçülük təsərrüfatlarının ixtisaslaşdırılmış texnikalarla təmin edilməsi, emal müəssisələri ilə mülkiyyətçilər arasında müqavilə şərtləri və digər məsələlər müzakirə olunub. Bununla yanaşı, tütün toxumçuluğunun təşkili üçün müvafiq elmi müəssisələrin fəaliyyətinin gücləndirilməsi, bu sahə üzrə kadrların hazırlanması, innovativ becərmə texnologiyalarının tətbiqinin nümayiş etdirilməsi, suvarma suyu ilə təminatın yaxşılaşdırılması və digər məsələlərlə bağlı müzakirələr aparıldı, fermerlərin təklifləri dinlənildi.

Cari ildə Qax rayonunun təsərrüfatlarında 500 hektar sahədə tütün əkini proqnozlaşdırılıb. Bununla bağlı 481 fermer müraciət edib, bugünədək 271 fermerlə müqavilə bağlanılıb. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, tütün şitillərinin yetişdirilməsi üçün istehsalçılar tərəfindən indiyədək 5685 kvadratmetr sahədə istixanalar hazırlanıb. Bu proses davam edir. İndiyədək 4991 kvadratmetr istixanaya toxum səpilib ki, yetişdiriləcək tütün şitilləri aprelin ortalarında sahələrə köçürüləcək.

Ölkəmizdə yenidən becərilməsinə diqqət yetirilən ənənəvi sahələrdən biri də çəltikçilikdir. Dövlətin bu sahəyə diqqətindən sonra çəltikçilik Astara rayonunda kənd təsərrüfatının perspektivli sahələrindən birinə çevrilib. Bu rayonda taxıl əkin sahələrinin üçdə iki hissəsini çəltikçilik təşkil edir. Keçən il rayonda 237 hektar sahədən 997 ton çəltik yığılıb. Hər hektar üzrə məhsuldarlıq 42,1 sentner təşkil edir. Cari ildə rayonda daha çox - 300 hektar sahədə çəltik əkilməsi və 1300 tona yaxın məhsul götürülməsi nəzərdə tutulub.

Aqrar sektorda aparılan islahatlar təkcə struktur və hüquqi sahələri əhatə etmir. Onun əsas məqsədi fermerlərə maddi dəstək göstərməkdir. Hazırda payızlıq əkinlərə görə subsidiyaların ödənilməsi prosesi davam edir. Cari il martın 6-dək 155537 fermerin "Fermer kartı"na 51,3 milyon manat subsidiya ödənilib. Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, martın 6-dək fermerlərin Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində 474520 fermer qeydiyyatdan keçib. Bu sistemdə qeydiyyatdan keçən təsərrüfatların ümumi sayı isə 596887-yə çatıb. Qeyd etdiyimiz kimi, bu rəqəmlər son deyil, çünki fermerlərin qeydiyyatdan keçməsi davam edir.

***Rüstəm KAMAL,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***



## "Elektron hökumət" portalına müraciət edənlərin sayı artır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Elektron hökumət" portalında təqdim edilən elektron xidmətlərinə təkcə bu ilin ötən dövründə 2 milyon 500 min müraciət qeydə alınıb.

Sayı 30-a yaxın olan e-xidmətlər əmək müqaviləsi bildirişlərinin e-qaydada qeydiyyata alınması, həmin bildirişlər barədə məlumatların işçilər tərəfindən əldə edilməsi, sığortaolunanlara məlumatların verilməsi, müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi, əlilliyin qiymətləndirilməsi ilə bağlı sonuncu müayinəyə dair məlumatın verilməsi, sosial yardımın alınması üçün müraciətin edilməsi və s. istiqamətləri əhatə edir.

Eyni zamanda, ötən il daha 13 növdə e-arayış xidmətini istifadəyə verən nazirliyin e-arayış xidmətlərinin sayı 15-ə çatıb. Onların sırasına iş yerinə və əlilliyə dair, pensiya, müavinət və təqaüd, sosial yardım, maddi yardım, birdəfəlik ödəmə, dövlət tərəfindən mənzillə, avtomobillə təmin olunma, fərdi şəxsi hesab və s. barədə e-arayış xidmətləri daxildir. Cari ilin ötən dövründə həmin e-arayış xidmətlərinə 140 min müraciət olub.

## ÜDM istehsalı 2,8 faiz artıb

Cari ilin yanvar-fevral aylarında ölkədə istehsal edilmiş ümumi daxili məhsulun (ÜDM) həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,8 faiz artaraq 12 milyard 578 milyon manat olmuşdur.

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, iqtisadiyyatın qeyri-neft-qaz sektorunda əlavə dəyər 6,7 faiz artmış, neft-qaz sektorunda 2,1 faiz azalmışdır.

ÜDM istehsalının 43,6 faizi sənaye, 9,6 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,7 faizi tikinti, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2 faizi informasiya və rabitə sahələrinin, 18,6 faizi digər sahələrin payına düşmüşdür. Məhsula və idxala xalis vergilər isə ÜDM-in 9,1 faizini təşkil etmişdir.

Bu dövrdə əhalinin hər nəfərinə düşən ÜDM-in həcmi 1263,7 manata bərabər olmuşdur.

## Almaniya ilə birgə investisiya layihələri müzakirə olunub

"Azərbaycan Sənaye Korporasiyası" ASC-nin baş direktoru Kamran Nəbizadə və Almaniyanın "Achenbach Buschhütten" şirkətinin beynəlxalq satış üzrə icraçı direktoru Rolf Vilbersin başçılıq etdiyi nümayəndə heyəti arasında işgüzar görüş keçirilib.

ASC-dən AZƏRTAC-a bildirilib ki, "Azəralüminium" MMC-də müəssisənin istehsal gücünün artırılması və bu istiqamətdə zəruri avadanlıqların, nou-hau (know-how) alman texnologiyasının tətbiqi, eləcə də mühəndislik xidmətlərindən istifadə olunması kimi təkliflər irəli sürülüb.

"Achenbach Buschhütten"in nümayəndəsi qeyd edib ki, şirkətin mütəxəssisləri "Azəralüminium" MMC-nin ərazisinə baxış keçirib, müəssisədəki mövcud vəziyyətlə tanış olub və istehsal gücünün artırılması istiqamətində zəruri tədbirlər müəyyən edilib. Bundan əlavə, layihənin səmərəliliyinin müəyyənləşdirilməsi məqsədilə texniki iqtisadi əsaslandırılmanın hazırlanması istiqamətində də müzakirələr aparılıb. Yeni metalyayma zavodunun inşası, investisiya yatırımının perspektivləri də görüşün müzakirə mövzusu olub.

Görüşdə Azərbaycan Sənaye Korporasiyasının "Strateji inkişaf və kommersiya" departamentinin əməkdaşları və "Azəralüminium" MMC-nin rəhbər heyəti iştirak ediblər.

## Yaponiya "Azərsu"ya müasir cihazlar verib

Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (JICA) qrant layihəsi çərçivəsində ilk dəfə olaraq "Azərsu" ASC-nin mərkəzi laboratoriyasına müasir cihazlar təqdim olunub.

Ümumi dəyəri 4000 ABŞ dolları olan qrant hesabına əvəzsiz olaraq verilən bu cihazlar mərkəzi laboratoriyanın tabeliyindəki Masallı, Quba, Beyləqan və Ucar regional laboratoriyalarının istifadəsinə veriləcək. Yeni cihazlar hesabına müvafiq analizlərin aparılması daha operativ şəkildə həyata keçiriləcək.

Məlumat üçün bildirək ki, hazırda "Azərsu" ASC-nin 9 şəhərdə regional laboratoriyası fəaliyyət göstərir. Regional laboratoriyalar Azərbaycanın ən ucqar ərazisində yerləşən mənbələrdəki suyun keyfiyyət göstəricilərini nəzarətdə saxlamağa imkan yaradır.

## Gürcüstanın Azərbaycana olan borcu açıqlanıb

Gürcüstanın xarici dövlət borcunda, o cümlədən Azərbaycana olan borcunda azalma qeydə alınıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın Maliyyə Nazirliyi məlumat yayıb. Bildirilir ki, martın 1-nə Gürcüstanın Azərbaycana olan borcu 6,2 milyon dollar təşkil edib. Bu da əvvəlki ayın eyni dövrü ilə müqayisədə 408 min dollar azdır.

Gürcüstanın ümumi xarici borcu isə 5,6 milyard dollar təşkil edir ki, bunun da 5,4 milyardı hökumətin payına düşür.

## Bu il daha böyük uğurların qazanılmasına əminlik var




**Gədəbəydə bütün fəsillər gözəldir. Qışı qarlı, yazı güllü-çiçəkli olan bu qədim diyarı gözəlləşdirən isə onun insanlarıdır. Hər ili uğurla yola salan gədəbəylilər mövcud imkanlardan maksimum istifadə edib daha böyük nailiyyətlər, yüksək göstəricilər qazanırlar.**

2019-cu il də rayon üçün yaddaqalan olmuşdur. İqtisadiyyatın əsasını əkinçilik və heyvandarlıq təşkil etdiyi üçün bu sahələrdə çalışan fermerlərə ötən il də hər cür dəstək göstərilmişdir. Nəticədə torpaq sahibləri 10 min hektarda kartof, 1813,8 hektarda buğda, 191 hektarda arpa, 240 hektarda kələm, 79,4 hektarda yerkökü, 9 hektarda qarğıdalı, 75 hektarda çuğundur, 90,2 hektarda digər tərəvəz məhsulları yetişdirmişlər. Həyata keçirilən yüksək aqrotexniki tədbirlər nəticəsində bütün sahələr üzrə yüksək göstəricilər əldə olunmuşdur. Heyvandarlıq üçün əlverişli şəraitə malik olan Gədəbəydə keçən il 69,3 min sentner ət, 478,8 min sentner süd və 5,6 min sentner yun istehsal edilmişdir ki, bu da əvvəlki ildəkindən xeyli çoxdur.

Əvvəlki illərdə olduğu kimi, keçən il də Gədəbəy fermerləri dövlətin müəyyənləşdirdiyi imtiyazlardan lazımınca yararlanmışlar. Belə ki, 2 min 944 hektar əkin sahəsinin becərilməsi üçün 3845 nəfərə yanacaq və motor yağlarına görə dövlət büdcəsindən 202 min 142 manat subsidiya verilmiş, 360 tondan çox mineral gübrə 70 faiz güzəştlə satılmışdır. Təmas xəttində yerləşən Şınıx zonasının 348 nəfər sakininə isə 33 min 143 manat subsidiya ödənilmişdir.

Gədəbəylilər cari ildə daha böyük uğurlar qazanacaqlarına əmindirlər. Rayon Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyevin sözlərinə görə, cari mövsüm üçün Gədəbəy taxılçıları 22 min 43 hektara payızlıq buğda, 90 hektara arpa səpmişlər. "11 min hektarda kartof yetişdirilir. Artıq toxum tədarükü də başa çatmışdır. Əsasən yerli sortlara üstünlük verilir", - deyə A.Nağıyev bildirmişdir.

Ötən il rayonda əhalinin məşğulluğunun təmin edilməsinə yönəldilmiş tədbirlər də davam etdirilmişdir. İl ərzində rayon Məşğulluq Mərkəzinə 2502 nəfər müraciət etmişdir ki, onlardan da 628 nəfəri müxtəlif idarə, müəssisə və təşkilatlarda işlə təmin olunmuşdur. Bundan başqa, 395 nəfər "DOST İş Mərkəzi" MMC tərəfindən haqqı ödənilən ictimai işlərə cəlb edilmişdir.

Hazırda rayon kəndləri sürətlə qazlaşdırılır. Keçən il 8 yaşayış məntəqəsində 1930 abonent təbii qazla təmin edilmişdir. Bu da Gədəbəydə qazlaşdırmanın 65 faizə çatdırılması deməkdir. Ötən il rayonun yol infrastrukturunda da bir sıra layihələr həyata keçirilmişdir. Belə ki, Arıqdam-Söyüdlü-Soyuqbulaq və Gədəbəy-Novosaratovka-Qaravəlilər, İsalı-Zamanlı avtomobil yollarının, eləcə də Qarıkənd-Miskinli-Çalburun avtomobil yolu üzərindəki körpünün tikintisi başa çatdırılmışdır.

Gədəbəy rayonu üçün ötən ilin yaddaqalan hadisələrindən biri "Milli Yaylaq Festivalı"nın keçirilməsidir. Miskinli yaylağında keçirilən festivalın əsas məqsədi Azərbaycan xalqının zəngin və çoxəsrlik mədəni irsinin, yüzillərlə formalaşmış yaylaq və elat mədəniyyətinin, eləcə də tarixi abidələrin nümayiş etdirilməsi və ərazinin turizm potensialının üzə çıxarılması idi. 16 ölkənin nümayəndə heyətinin iştirak etdiyi 3 günlük tədbirə 50 mindən çox turist qatılmışdır.

Yeri gəlmişkən qeyd edək ki, rayonda turizmi inkişaf etdirmək üçün keçən il ilk dəfə olaraq rayonun tarixi və mədəniyyət abidələri haqqında məlumatları və coğrafi yol xəritələrini özündə əks etdirən kitab nəşr edilmişdir.

Keçən il rayonda keçirilən bütün kütləvi tədbirlərdə könüllü gənclərin iştirakı təmin edilmiş, yaradılan şərait gənclər arasında bu hərəkata rəğbətin daha da artmasına səbəb olmuşdur. Dövlət başçısının 2020-ci ili "Könüllülər ili" elan etməsi isə söz yox ki, gədəbəyli gənclərin bu sahədə olan uğurlarını daha da artıracaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***







## Qabaqlayıcı tədbirlər səmərə verir

# Sosial izolyasiya prosesi vətəndaşlardan yüksək məsuliyyət tələb edir

### Azərbaycan dövləti əhalinin bütün növ təhlükələrdən etibarlı müdafiəsini təşkil etmək üçün zəruri potensiala malikdir









*Əvvəli 1-ci səh.*

Azərbaycan güclü dövlətdir, öz vətəndaşlarının bütün növ təhlükələrdən etibarlı müdafiəsini təşkil etmək üçün zəruri potensiala malikdir. DST-nin ekspertlərinin də qeyd etdiyi kimi, Azərbaycan hazırkı qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir.

Hazırda Azərbaycan hökuməti DST-nin tövsiyələrini və beynəlxalq təcrübəni nəzərə alaraq, əhalinin sağlamlığının etibarlı qorunması və virusun yayılmasının qarşısının alınması üçün həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirir.

Fevralın əvvəlindən reallaşdırılan tədbirlər infeksiyanın xaricdən idxalını məhdudlaşdırmaq və onun ölkə daxilində yayılmasının qarşısını almaq məqsədi daşıyıb. Dövlət orqanlarının fəaliyyətini əlaqələndirən operativ qərargahın yaradılması, bəzi ölkələrlə sərhədlərin bağlanması və gediş-gəliş təmaslarının məhdudlaşdırılması, karantin rejiminin tətbiqi və digər addımlar hazırkı dövrə kimi qarşıya qoyulan vəzifələri maksimum icra etməyə imkan verib.

Koronavirusun dünyada geniş yayılması ilə əlaqədar DST tərəfindən infeksiyanın qlobal pandemiya elan olunması Azərbaycanda da əlavə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zərurətə çevirib.

Bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması, dövlət və özəl sektora aid qurumlar, vətəndaşlar üçün xüsusi qaydaların elan olunması və onlara ciddi riayət edilməsi üçün nəzarət mexanizminin formalaşdırılması və tətbiqi qərara alınıb.

### Əməl olunmalı qaydalar həm də milli təhlükəsizlik və milli həmrəylik məsələsidir

Tətbiq olunan qaydalar təkcə dövlət orqanlarının deyil, ümumilikdə bütün cəmiyyətin, fərdi qaydada hər bir vətəndaşın üzərinə böyük məsuliyyət qoyur.

Həmin qaydalar milli təhlükəsizlik və milli həmrəylik məsələsidir və tutduğu mövqedən, baxışlarından asılı olmayaraq, hər bir vətəndaşdan maksimum şəkildə diqqətli və məsuliyyətli olmasını tələb edir. Eyni zamanda, hər bir vətəndaş bilməlidir ki, tətbiq olunan qaydalar ilk növbədə onun və yaxınlarının təhlükəsizliyini, sağlamlığını təmin edən müvəqqəti və eyni zamanda məcburi addımlardır. Buna görə də hamı qaydalara anlaşıqlı, dözümlü yanaşmalı, onları maksimum icra etməyə çalışmalıdır.

Hər bir vətəndaş nümunəvi davranışı, dövlət orqanlarının işinə dəstək vermək ilə özünü, ailəsini, yaxınlarını qorumuş olacaq və ümumilikdə cəmiyyətimizin təhlükəsizliyinə öz töhfəsini verəcək.

Təkcə dövlət orqanlarının səmərəli fəaliyyəti deyil, ayrı-ayrılıqda hər bir şəxsin sosial məsuliyyətdən irəli gələn davranışı, Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tövsiyə, təklif və qərarlara qeyd-şərtsiz əməl etməsi qarşıda duran vəzifələrin mümkün qədər səmərəli icrasını reallaşdıracaq əsas faktorlardan biridir.

Hər hansı xəstəliyin müalicəsi, əlbəttə, ilk növbədə həkimin müayinə və diaqnozundan çox asılıdır. Dünyanı vahimə içərisində saxlayan koronavirusun da müalicəsi, təbii ki, onun profilaktikasından başlayır. Dünya səhiyyəsinin son nailiyyətlərini nəzərə alsaq, bu virusa yoluxmanın qarşısının alınması ilə bağlı həyəcanı müqayisə etmək o qədər də asan deyil.

Koronavirusa yoluxaraq dünyasını dəyişənlərin müxtəlif yaş qruplarına aid olması ilə bağlı Çinin Xəstəliklərə Nəzarət və Müdafiə Mərkəzinin yaydığı statistikaya nəzər salsaq görərik ki, bu bəladan həyatını itirənlərin 2,8 faizi kişilər, 1,7 faizi isə qadınlardır. Virusa yoluxanların 80 yaşdan yuxarı olanları - 14,8, 70-80 yaş arası - 8, 60-70 arası - 3,6, 50-60 arası - 1,3, 40-50 arası - 0,4, 30-10 arası - 0,2 faizdir. 10 yaşadək uşaqlarda isə ölüm faizi yoxdur.

Təəssüfləndirici haldır ki, dünyada koronavirusa yoluxanların sayı durmadan artmaqdadır. Bu fakt Dünya Səhiyyə Təşkilatının yaydığı məlumatda da təsdiqlənib. Antarktidadan başqa, bütün qitələrə yayılmış virusdan xilas yolları araşdırılmaqdadır.

Çinin hüdudlarından kənarda koronavirusa yoluxanların sayı müxtəlif mənbələrdə fərqli rəqəmlərlə göstərilir. Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adxanon Gebreyesusun bu barədə verdiyi məlumatlara görə, virus artıq 127 ölkədə yayılıb. Bu vurusa ən azı 148051 nəfər yoluxub ki, onlardan 5544-ü dünyasını dəyişib. Onlardan 144-ü yeni ölüm faktıdır. 78116 nəfər sağalıb. Onlardan 2334-ü yeni sağalanlardır. Diqqətçəkən məqam isə Çin ərazisində yoluxma sürətinin son günlər azalmağa başlamasıdır.

Koronavirusun “doğulduğu” Çində martın 13-də dünyasını dəyişənlərin sayının azalaraq cəmi 7 nəfər olduğu bildirilir. Lakin gün ərzində virusa yoluxanların sayında artım olub: 8 nəfər. Çində daha 1318 nəfər isə sağalaraq xəstəxanalardan evə buraxılıb. Hazırda Çində bu bəlaya yoluxanların sayı 80813 nəfərdir. Həmin ölkənin 64111 sakini yeni virusdan sağalsa da, 3176 nəfərin həyatını xilas etmək mümkün olmayıb. Bu xəstəliyə yoluxma ən aşağı göstərici hesab edilib.

Virusun sürətlə yayılması ilə bağlı Dünya Səhiyyə Təşkilatının “həyəcan təbili” çalması ilə yanaşı, bir neçə həftədən sonra müxtəlif ölkələrdə koronavirusa qarşı hazırlanan peyvəndlərin ilk nəticələrini öyrənmək mümkün olacağı da bildirilir. Bu ümidverici xəbəri şərh edərkən Dünya Səhiyyə Təşkilatının baş direktoru eyni zamanda onu da vurğulayıb ki, infeksiyanın qeydə alındığı ölkələr onun qarşısını almaq üçün effektiv tədbirlər həyata keçirməsə, koronavirusun yayılması ilə bağlı vəziyyət nəzarətdən çıxa bilər.

### Operativ Qərargah əhaliyə çağırış edib

Martın 13-də Nazirlər Kabineti yanında Operativ Qərargahda (COVID-19) virusu pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə müzakirələr aparılıb. Müşavirədə təcili, təxirəsalınmaz və icrası məcburi olan bir sıra qərarlar qəbul edilib. Bu qərarlar əsasında aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib. Virusun daha geniş yayılmasının qarşısının alınması məqsədilə təxirəsalınmaz profilaktik tədbirlər davam etdirilir.

Müşavirədə qeyd edilib ki, sosial şəbəkələrdə və “WhatsApp” ani mesajlaşma əlavələri vasitəsilə koronavirus infeksiyasının yayılmasına yol verməmək üçün Bakı şəhərində ərzaq mağazalarının bağlanacağı və onların iş rejiminə ciddi fasilələr tətbiq olunacağı barədə səs yazısı yayılır. Buna cavab olaraq bildirilib ki, hazırda əhalinin sağlamlığının etibarlı qorunması və koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən kompleks tədbirlər çərçivəsində ərzaq mağazaları, market və supermarketlərin iş rejimində dəyişiklik olmayacaq.

Restoran və kafelərdə iş rejimi axşam saat 21:00-dək davam edir və müvafiq dövlət strukturları tərəfindən həmin iaşə obyektlərinin gecə fəaliyyət göstərəcəyi barədə yayılan iddia şayiə xarakterlidir və cəmiyyətdə süni ajiotaj yaratmaq məqsədi daşıyır. Hazırda aidiyyəti orqanlar tərəfindən bu tipli şayiə yayan şəxslərin aşkarlanması və onların barəsində hüquqi məsuliyyət tədbirləri görülməsi üçün müvafiq iş aparılır.

Azərbaycan dövləti öz vətəndaşlarının təhlükəsizliyinin təmin olunması istiqamətində Dünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq bütün öhdəlikləri yerinə yetirir.

Koronavirus infeksiyasının (COVID-19) sürətlə yayılması heç bir dövlət tərəfindən gizlədilmir. Virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ tapılmaması dövlətləri daha ciddi tədbirlər görməyə məcbur edir. Buna görə də virusun qarşısının alınması istiqamətində DST-nin tövsiyə və tələblərindən irəli gələrək Azərbaycan ərazisində də bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti yaranıb. Bununla əlaqədar bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması qərara alınıb. Həmçinin dövlət və özəl sektora aid qurumlardan vətəndaşlardan xüsusi qaydalara ciddi riayət etmələri tələb olunur.

### Şayiələrə, saxta ajiotaj yaradan informasiyalara inanmayın

Qəbul olunmuş qərarda o da göstərilir ki, koronavirus diaqnozu ilə xüsusi rejimli xəstəxanalarda müalicə alan və karantin qaydalarını pozan şəxslər barəsində cəza tədbirləri tətbiq ediləcək. Eyni zamanda, ictimaiyyətdə yanlış fikrin formalaşdırılması məqsədi güdən və qəsdən bu qəbildən olan informasiyaların yayılmasını həyata keçirən KİV, o cümlədən sosial şəbəkə istifadəçiləri barəsində ən ciddi tədbirlər görüləcək.

Kütləvi informasiya vasitələri, fəal sosial şəbəkə istifadəçiləri bilməlidirlər ki, mövcud qaydalar həm də cəmiyyətimizin informasiya təhlükəsizliyi məsələsidir. Hər bir media orqanı, sosial şəbəkə istifadəçisi vətəndaşlar tərəfindən qaydalara riayət olunmasını təbliğ etməli, insanları maarifləndirməli, cəmiyyətdə şayiə və ajiotaj yaranmasına yol verməməli, narahatlığa səbəb olacaq məlumatlar, dezinformasiyalar yaymaqdan çəkinməlidir.

Televiziya kanallarının üzərinə bu məsələdə daha çox yük düşür. Onlar analitik verilişlərdə məsələni müzakirəyə çıxarmalı, ekspertlər tərəfindən şərhini təşkil etməlidirlər. Saytlar məsələni davamlı şəkildə gündəmdə saxlamalı, müvafiq şərhlər, müsahibə və rəylər verməlidirlər.

Hamı bilməlidir ki, yalan, dezinformasiya xarakterli video və fotolar, səs yazıları, iddialar təxribat kimi qiymətləndiriləcək və müvafiq hüquqi məsuliyyət doğuracaq.

Ölkə əhalisindən və KİV-dən bütün dünyada yaranmış hazırkı vəziyyətlə bağlı maksimum məsuliyyətli olmaq və dövlət tərəfindən həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərmələri tələb olunur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Operativ Qərargahın koronavirusla bağlı KİV nümayəndələri üçün keçirilən brifinqində o da bildirilib ki, artıq bir sıra tədbirlər qadağan edilir. Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov qeyd edib ki, kafelərlə bağlı xüsusi təlimatlar hazırlanacaq: “Bununla Qida Təhlükəsizliyi Agentliyi qısa zamanda məşğul olacaq. Bu rejimin olması o demək deyil ki, Azərbaycanda vəziyyət gərgindir. Sadəcə qabaqlayıcı tədbirdir ki, başqa ölkələrdəki kimi kütləvi hal almasın. Koronavirus pandemiya elan edilsə də, Azərbaycanda koronavirus pandemiya vəziyyətində deyil. Bəzi saytlar ajiotaj yaradır. Buna qarşı da hüquq mühafizə orqanları tədbirlər görəcəklər”.

Hökumət tərəfindən qoyulan qaydalara riayət etməyən obyektlər bağlanacaq. Qadağalar pozulduğu təqdirdə cərimələr tətbiq olunacaq. Vəziyyətə uyğun olaraq Qida Təhlükəsizliyi Agentliyi, Bakı Şəhər Ticarət Departamenti, Daxili İşlər Nazirliyi cərimələri tətbiq edəcək.

İ.Məmmədov onu da bildirib ki, ərzaq çatışmazlığının yaranacağı ilə bağlı yayılan məlumatlar yalandır: “Hazırda ölkənin ərzaq ehtiyacı tam təmin olunub”.

Koronavirusla bağlı yaranan fövqəladə şəraitdə yalnız dövlət tərəfindən keçirilən tədbirlər deyil, vətəndaşlarımızın, bütün cəmiyyətin sosial məsuliyyətdən irəli gələn addımları, görülən işlərə dəstəyi vacibdir. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tövsiyə, təklif və qərarları qeyd-şərtsiz icra olunmalıdır.

### Dünya koronavirusa qarşı birləşir

Hələlik (az qala hər saat rəqəmlər dəyişilir) Fransada koronavirusa yoluxanların sayı 3661 nəfərə, virusdan ölənlərin sayı isə 79 nəfərə çatıb. Bu barədə “TASS” məlumat yayıb. Fransanın İctimai İşlər və Səhiyyə naziri Olivye Veran “yoluxanların sayı 3661 nəfər təşkil edir, bu, dünənki göstəricidən 800 nəfər çoxdur”, - deyə bildirib ki, ölənlərin sayı son gün ərzində 18 nəfər artaraq 61-dən 79-a çatıb.

Son 24 saat ərzində Rusiyada koronavirusa yoluxanların sayı 34-dən 45-ə çatıb. Rusiya Federasiyasında koronavirusa yoluxmuş 45 nəfər qeydə alınıb. Onlardan 42 nəfəri Rusiya, 2-si Çin Xalq Respublikası, biri isə İtaliya vətəndaşıdır.

İtaliyada sutka ərzində ümumi yoluxma hadisələrinin sayı 3 minə yaxın artıb, ölənlərin sayı 1000 nəfəri keçib. İtaliyanın Mülki Müdafiə Xidmətinin rəhbəri Anjelo Borrelli deyib ki, ölkədə 213 nəfər sağalıb, onların sayı 1258-ə çatıb. Onun sözlərinə görə, ölən və sağalanlar da daxil olmaqla, yoluxma hallarının ümumi sayı 15 mini keçib.

ABŞ-da koronavirusa təsdiqlənmiş yoluxma halları 1162 nəfərə çatıb. 37 nəfər bu virusun qurbanına çevrilib. Bundan əvvəl 1938 nəfərin virusa yoluxduğu deyilirdi və paytaxt federal dairə Kolumbiya da daxil olmaqla, 36 ştatda yoluxma hallarının olduğu ehtimal edilirdi. Ölənlərin sayının bundan əvvəlki göstəricisi isə 29 nəfər olub. Daha çox yoluxma halları Vaşinqton, Nyu York və Kaliforniya ştatlarında qeydə alınıb. Artıq Vaşinqton və Nyu Yorkda koronavirusa yoluxma hallarının artması ilə əlaqədar fövqəladə vəziyyət rejimi tətbiq edilib.

Gürcüstanın bütün dövlət qurumları isə koronavirusla bağlı 24 saatlıq fövqəladə iş rejiminə keçib. Ölkənin Baş Naziri Giorgi Qaxaria hökumətin iclasında vurğulayıb ki, xüsusən səhiyyə, daxili işlər, təhsil, ədliyyə, xarici işlər və maliyyə nazirlikləri fövqəladə rejimdə fəaliyyət göstərirlər.

Gürcüstanın Baş Nazirinin sözlərinə görə, Gürcüstan Almaniya, Fransa, Avstriya və İspaniyadan gələn şəxslərin ölkəyə daxil olmasını da sərtləşdirib. Həmin ölkələrdən qayıdan Gürcüstan vətəndaşları 14 günlük karantində saxlanılacaq. Əcnəbi vətəndaşlar isə koronavirusa aid testin cavabı ilə bağlı arayış təqdim etməli, yaxud karantində qalmalı olacaqlar. Çin, Cənubi Koreya və İtaliyadan Gürcüstana gələn şəxslər üçün də məhdudiyyətlər qüvvədədir.

Fransada sutka ərzində koronavirus xəstələrinin sayı təxminən 600 nəfər artaraq 2876 nəfərə çatıb, qurbanların sayı 60-ı keçib. Son məlumatlara görə, Fransada 2876 xəstələnmə faktı təsdiq edilib, 129 nəfərin vəziyyəti ağırdır. 61 nəfər isə həlak olub.

### Avropanın daha iki ölkəsində fövqəladə vəziyyət elan edilib

Latviya və Estoniyada koronavirusa görə fövqəladə vəziyyət elan edilib. Estoniyada fövqəladə rejim tədbirləri 2020-ci il mayın 1-dək, Latviyada isə aprelin 14-dək davam edəcək. Qərar martın 13-dən qüvvəyə minib. Bütün təhsil müəssisələrində karantin tətbiq edilib. Bu günlərdə Latviyanın 90 məktəb və uşaq bağçalarında virusa yoluxma halı aşkar edilib.

Estoniyada mayın 1-dək muzey, kinoteatrlar bağlanıb, konsertlər, konfrans və idman yarışları qadağan olunub. Latviyada 16, Estoniyada isə 27 koronavirusa yoluxma faktı qeydə alınıb.

Türkiyədə koronavirus daşıyıcılarının sayı hələ ki 2 nəfərdir. Türkiyənin Mədəniyyət və Turizm naziri Mehmet Nuri Ersoy bildirib ki, turizm müəssisələrinin mövsüm açılışı martın 16-dan aprelin 16-na keçirilib. Türkiyənin Ali Təhsil Şurası martın 16-dan başlayaraq ali təhsil müəssisələrində 3 həftəlik tətilin olacağını elan etməklə yanaşı, universitetlərdə bütün tədbirlərin müvəqqəti olaraq ləğvi haqqında qərar verib. Tətildən sonra Türkiyə Səhiyyə Nazirliyinin verdiyi qərara uyğun addımlar atılacaq. Ölkə miqyasında bir çox mədəni-kütləvi tədbirlər də təxirə salınıb, hətta bəzi özəl teatrlarda biletləri satılan tamaşaların nümayişi belə ləğv olunub. Türkiyə Ədliyyə Nazirliyi həbsxanalarda ziyarətlərin ləğv olunduğunu açıqlayıb. Bir çox siyasi partiyalar da mart-aprel aylarında keçiriləcək tədbirlərin tarixini dəyişib.

Səudiyyə Ərəbistanında yeni növ koronavirusa yoluxanların təsdiqlənmiş sayı 62-yə çatıb. Bundan əvvəl ölkədə 45 nəfərin virusa yoluxduğu bilinirdi. Avstraliyanın Daxili İşlər naziri Piter Dattona koronavirus diaqnozu qoyulub. Hazırda bu ölkədə koronavirus daşıyıcılarının sayı 160 nəfərdir. 3 nəfər isə artıq dünyasını dəyişib. İspaniyanın Ərazi Siyasəti və Dövlət Qulluğu naziri Karolina Darias da koronavirusa yoluxub. Bundan öncə isə İspaniyanın Bərabərlik nazirində koronavirusun aşkarlandığı bildirilirdi. Belçikada koronavirusa yoluxanların sayı 399 nəfərə çatıb. Ölkədə üç nəfər infeksiyanın qurbanı olub. Martın 9-da Kubanın paytaxtı Havanaya turist olaraq səfər edən 3 nəfər İtaliya vətəndaşının virus daşıyıcısı olduğu müəyyənləşib.

Latın Amerikasında yerləşən Argentinada 21 nəfərdə virus aşkarlanıb, onlardan biri ölüb. Hələlik Çilidə 23, Ekvadorda 17, Braziliyada 52, Meksikada 8, Peruda 13, Kolumbiyada 9, Kosta-Rikada 22, Dominikan Respublikası və Paraqvayda 5, Panamada isə 8 nəfərə koronavirus diaqnozu qoyulub.

Dünyanın daha 3 ölkəsində koronavirusa ilk yoluxma halı qeydə alınıb. Mərkəzi Afrikada yerləşən Qabonda 27 yaşlı ölkə vətəndaşı bu virusa yoluxub. Onun yaxın günlərdə Fransadan qayıtdığı, karantinə alındığı, vəziyyətinin yaxşılaşdığı bildirilir. Koronavirusun ilk dəfə aşkarlandığı daha bir ölkə Qanadır. Virusa iki yerli sakin tutulub ki, onlardan biri Norveçdən, digəri isə Türkiyədən qayıdıb. Hər iki xəstə karantinə yerləşdirilib.

Ruminiyada koronavirusa yoluxanların sayı 29-dur. Ölkə ərazisində xəstələrin sayı birdən-birə 17-dən 29-a yüksəlib. Xəstələrin əksəriyyəti İtaliyadan gələn koronavirusa yoluxmuş bir şəxslə ünsiyyətdə olublar. Paytaxt Buxarestdə 8 nəfər xəstəxanaya yerləşdirilib. Ümumilikdə, 107 nəfər karantinə alınıb. Ölkə ərazisindəki bütün məktəblərdə martın 22-nə kimi tətil elan olunub.

Nəhayət, Ermənistanda koronavirusa yoluxanların sayı səkkiz nəfərdir.

### “Şagirdlərin dərs proqramından geri qalmaması üçün videodərslərin keçirilməsinə başlanıb”

Bunu Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib. O, deyib ki, koronavirusa yoluxan bir nəfər dünyasını dəyişib: “Ancaq o şəxsin də vəziyyəti digər xəstəliklərlə bağlı ağır olub, koronavirusdan həyatını dəyişməyib. İndiyə qədər koronavirusa yoluxan 3 nəfər sağalıb. Karate yarışı ilə bağlı tədbir ləğv olunub. Bakıda keçiriləcək “Formula-1” ilə bağlı hələ qərar yoxdur. “Formula-1” yayda keçirilməlidir. O dövrə qədər vəziyyətdən asılı olaraq qərar qəbul ediləcək. Məktəblər mart ayının 27-dək dayandırılıb. Ola bilsin həmin vaxta bir neçə gün qalmış vəziyyət dəyərləndirilsin və sərəncam olsun. Amma bu, həmin o zamana yaxın vaxtlarda müzakirə oluna bilər”.

Azərbaycan hökuməti virusun yayılmasının qarşısının alınması və profilaktikası, əhalinin sağlamlığının mühafizəsi ilə bağlı bütün lazımi tədbirləri yüksək səviyyədə davam etdirir. Yoluxma hallarının qarşısının alınması məqsədilə ölkədə dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlər intensivləşdirilir. Bütün bağça, orta məktəb və ali təhsil müəssisələrində, hər növ ictimai nəqliyyatda, dövlət və özəl müəssisələrdə dezinfeksiya işləri aparılır.

Gömrük-sərhəd buraxılış məntəqələrində koronavirus epidemiyasına qarşı qabaqlayıcı tədbirlər, lazımi sanitar-profilaktik və dezinfeksiya işləri gücləndirilmiş rejimdə davam etdirilir.

Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən bildirilib ki, respublikamızın bütün gömrük-sərhəd buraxılış məntəqələrində, o cümlədən Cənub Ərazi Baş Gömrük İdarəsinin “Astara” və “Biləsuvar” gömrük postlarında mütəmadi olaraq dezinfeksiya işləri həyata keçirilir. Hər bir nəqliyyat vasitəsi stasionar dezinfeksiya qurğusundan keçməklə rejim zonasına daxil olur.

Ölkəmizə gətirilən yüklər Azərbaycan Respublikasına aid avtomobillərə boşaldılır. Tranzit yük daşıyan nəqliyyat vasitələri isə Dövlət Yol Polisinin müşayiəti ilə təyinat nöqtəsinə yola salınır.

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərinin fəaliyyəti martın 15-dən 19-dək məhdudlaşdırılır.

Dövlət xidmətlərinin göstərilməsini təmin etmək üçün bu dövr ərzində müraciətlər 108 “Çağrı” mərkəzi vasitəsilə qəbul ediləcək. Vətəndaşları qəbul edəcək mərkəzlər və səyyar xidmət göstərəcək əməkdaşlar insan hərarətini ölçən cihaz və müvafiq gigiyenik vasitələrlə təmin ediləcəklər.

Martın 15-dən 19-dək sənədlərinin hazır olacağı barədə əvvəlcədən məlumat verilən vətəndaşlar mərkəzlərə yaxınlaşaraq sənədlərini əldə edə bilərlər. Vətəndaşlara “Elektron hökumət” portalında (https://www.e-gov.az) mövcud olan elektron xidmətlərdən istifadə etmək tövsiyə olunur. Vətəndaşların nəzərinə o da çatdırılır ki, martın 20-dən 28-dək Novruz bayramı ilə əlaqədar “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərində qeyri-iş günləri olacaq.

Nazirlər Kabinetinin sərəncamına əsasən, yoluxma hallarının qarşısının alınması və ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin davam etdirilməsi məqsədilə martın 10-dan 20-dək tədris, təlim-tərbiyə prosesi dayandırılıb və tədbirlər təxirə salınıb. Təhsil Nazirliyi bu müddət ərzində şagirdlərin dərs proqramından geri qalmaması üçün videodərslərin keçirilməsinə başlayıb.

### Azərbaycan ilə Gürcüstan arasında dövlət sərhədi bütün nəqliyyat vasitələri üçün 10 gün müddətinə bağlanıb

Martın 13-də Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov ilə Gürcüstanın Baş Naziri Giorgi Qaxariya arasında telefon danışığı olub. Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, hər iki ölkənin vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi və sağlamlığının qorunması məqsədilə hökumət başçılarının qarşılıqlı razılığına əsasən, 2020-ci il 14 mart saat 00:00-dan etibarən on günlük müddətə Azərbaycan ilə Gürcüstan arasında dövlət sərhədinin bütün nəqliyyat vasitələri üçün müvəqqəti bağlanması barədə qərar qəbul edilib.

Azərbaycan ərazisində olan Gürcüstan vətəndaşlarının ölkədən çıxması, Gürcüstan ərazisindəki Azərbaycan vətəndaşlarının öz vətəninə gəlməsini təşkil etmək üçün zəruri dəhliz təmin olunacaq. Eyni zamanda, yükdaşımaların həyata keçirilməsi üçün tranzit dəhlizi də fəaliyyət göstərəcək: “Ölkələrlə ciddi nəzarət altında gediş-gəliş saxlanılır. Aviareyslər məhdudlaşdırılıb, amma bir çox ölkələrin bizdə olan vətəndaşları ölkələrinə gedirlər, bizim vətəndaşlar geri gəlmək istəyirlər. Ona görə ciddi nəzarət altında gediş-gəliş saxlanılır”.

### Toy məclisləri və yas mərasimlərinin keçirilməsinə müvəqqəti qadağa

Azərbaycan ərazisində bütün toy məclislərinin keçirilməsi qadağan edilib.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, 14-15 mart 2020-ci il tarixlərinə əvvəlcədən təyin olunan toy mərasimləri istisna olmaqla, 14 mart saat 00:00-dan etibarən bir ay müddətində ölkə ərazisində bütün toy, həmçinin (dəfn mərasimləri istisna olmaqla) mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas məclislərinin keçirilməsi qadağan olunur.

İctimai nəqliyyatda dezinfeksiya tədbirləri davam etdirilir. Qısa müddətdə ictimai nəqliyyatla bağlı təlimatlar işlənəcək ki, onlar ticarət mərkəzlərini də əhatə edəcək. Böyük ticarət mərkəzlərində satıcılar maska və əlcəkdə, alıcılar bir-birindən 1 metr məsafədə olacaqlar.

Bakıda keçirilməli olan karate üzrə Avropa çempionatı da ləğv edilib. Məlumatı Ümumdünya Karate Federasiyası yayıb. Yarışın ləğvinə koronavirus epidemiyası səbəb olub. Qeyd edək ki, sayca 55-ci Avropa çempionatı martın 25-29-da keçirilməli idi.

### Qaydalara əməl edib, qorunmaq lazımdır

Bütün bunlarla yanaşı, nikbinliyi artıran bir səbəb də var: tezliklə havaların istiləşəcəyi. O zaman ölkədə bu virus tapılsa belə infeksiya tədricən sönəcək. Buna qədər isə Dünya Səhiyyə Təşkilatının tövsiyələrinə əməl etmək vacibdir. Xüsusilə də gigiyenik qaydalara əməl edilməlidir.

Tibbi mütəxəssislərin fikrincə, profilaktik tədbirlər düzgün aparılsa, ən az itki ilə bu vəziyyətdən çıxmaq olar. Səhiyyə Nazirliyinin baş epidemioloqu İbadulla Ağayev isə virusun ölkəmizdə daha geniş yayılma təhlükəsinin olmadığını, bütün qabaqlayıcı tədbirlərin aparıldığını deyir.

***Məhəmməd NƏRİMANOĞLU, “Azərbaycan”***

  

# Mədəniyyət

  

**Maarif xadimləri**

**XX əsr Azərbaycan dövlətçiliyi və təhsili tarixində onun böyük xidmətləri olub. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri - Həmid bəy Şahtaxtinski vətəni, milləti yolunda yalnız biliyi və bacarığı ilə çalışmayıb. O, öz ömrünü Azərbaycanın dövlət müstəqilliyinə, həmvətənlərinin azadlığına, tərəqqisinə həsr edib...**

**Həmid bəy Şahtaxtinski 1880-ci il martın 12-də Naxçıvan qəzasının Şahtaxtı kəndində dünyaya gəlib. Atası Xəlil bəy babasının, əmilərinin, qardaşlarının yolu ilə gedib, hərbçi olub. Bu maarifpərvər, müasir fikirli ziyalı övladlarının təhsilinə xüsusi diqqət yetirib. Həmid bəy Şahtaxtinski ömrünün sonunadək oxuyub öyrənməyə, öyrətməyə böyük maraq göstərib.**



## Ömrü sürgündə bitən millət cəfakeşi

O, öz tərcümeyi-halında beş yaşında ibtidai məktəbə getdiyini, ana dili ilə bərabər fars dilini də öyrəndiyini yazıb. İki il sonra isə beşillik rus məktəbinə daxil olub. Həmin məktəbi - Naxçıvan üçüncü dərəcəli şəhər məktəbini bitirdikdən sonra o, İrəvan Müəllimlər Seminariyasında təhsilini davam etdirib. 1899-cu il iyunun 5-də seminariyanın tam kursunu bitirib. Gənc müəllim kimi İrəvan rus-tatar məktəbinə təyinat alıb. Ancaq Qafqaz Tədris Dairəsinin (Popeçitel) 1901-ci il 27 oktyabr tarixli təklifi ilə Həmid bəyə İrəvan Müəllimlər Seminariyasında türk dili (Azərbaycan) dərslərini tədris etməyə icazə verilib. 1902-ci il aprelin 9-da vəzifəyə təsdiq olunub. Təyinatla beş ildən çox İrəvan Müəllimlər Seminariyasında pedaqoji fəaliyyət göstərib.

Həmin ilin sonları ali təhsil almaq arzusu onu Odessaya aparıb. Novorossiysk İmperator Universitetinin hüquq fakültəsinə daxil olub. Universitetdə azərbaycanlı tələbələrin yaratdığı “Azərbaycan Həmyerliləri” təşkilatının rəhbərlərindən biri olub. 1912-ci ildə universiteti bitirib.

1917-ci ildə baş verən fevral inqilabından sonra Azərbaycanın vətənsevər övladlarının siyasi fəallığı yüksəlib. Həmid bəy Şahtaxtinski həmin ildən “İttihad” partiyasının üzvü olub. İnqilabdan sonra Tiflisdə keçirilən Müəllimlər Qurultayında Müvəqqəti Zaqafqaziya Hökuməti tərəfindən Qafqaz Təhsil Dairəsi Komissarlığının üzvlüyünə seçilib. 1918-ci ildə Zaqafqaziya Seymi formalaşdıqdan sonra Zaqafqaziya Hökumətinin Xalq təhsil naziri vəzifəsində çalışıb.

1918-ci ilin 28 mayı... Azərbaycanın qabaqcıl ziyalıları Tiflis şəhərində Qafqaz canişininin əzəmətli sarayına toplaşırlar. Milli Şuranın iclasını keçirirlər. Onlar vətənin, millətin taleyinə günəş kimi şəfəq saçan bir qərara - Azərbaycanın dövlət müstəqilliyi barədə qərara imza atırlar. O möhtəşəm, tarixi iclasın iştirakçılarından biri də Həmid bəy Şahtaxtinski olub...

1918-ci il iyunun 6-da Fətəli xan Xoyskinin Gəncədə formalaşdırdığı ikinci Hökumət kabinetində ona da məsul vəzifə tapşırılıb. Həmid bəy Şahtaxtinski Xalq Maarifi və Dini Etiqad naziri Nəsib bəy Yusifbəylinin müavini olub. 1918-ci ilin oktyabrınadək orada xalq müəllimlərinin təkmilləşdirilməsi üzrə kurslara rəhbərlik edib. Bu işləri yekunlaşdırdıqdan sonra, 1918-ci ilin noyabrında Bakıya gəlib. 1918-ci il dekabrın 26-da Xoyskinin formalaşdırdığı üçüncü Hökumət kabinetində də Həmid bəy Şahtaxtinski Maarif və Dini Etiqad nazirinin müavini vəzifəsində çalışıb.

O, 1919-cu il martın 14-də Nəsib bəy Yusifbəylinin yaratdığı Hökumət kabinetində Maarif və Dini Etiqad nazirliyinin idarəedicisi kimi fəaliyyət göstərib. Araşdırıcılar qeyd edirlər ki, sonradan Həmid bəy Şahtaxtinskinin Baş Nazir Nəsib bəy Yusifbəyli ilə münasibətlərində fikir ayrılığı yaranıb. Vəzifəsindən uzaqlaşıb və yeddi ay yarım işsiz qalıb. 1919-cu il dekabrın 24-də Nəsib bəy Yusifbəylinin formalaşdırdığı ikinci (sayca 5-ci) Hökumət kabinetində Həmid bəy Maarif və Dini Etiqad naziri təyin edilib. 1920-ci il martın 5-də o, bu vəzifədən istefa verib. Parlament və universitet fəaliyyətini davam etdirib. Həmid bəy 1919-cu ilin iyulundan “İttihad” partiyasının rəsmi üzvü kimi Azərbaycan parlamentində təmsil olunub. “İttihad” parlamentdə “Müsavat”dan sonra ikinci güclü partiya idi.

Həmid bəy Şahtaxtinski təhsilin inkişafında misilsiz xidmətlər göstərib. Cümhuriyyət hökumətində maarif sisteminə rəhbərlik edənlərdən biri kimi ölkədə təhsil müəssisələrinin milliləşdirilməsində, şəhər və kəndlərdə ana dilində məktəb və seminariyaların, Bakı Dövlət Universitetinin açılmasında böyük əmək sərf edib. O, Nazirlər Şurasının qərarı ilə 1919-cu il avqustun 20-dən sentyabrın 1-dək Bakıda keçirilən Azərbaycan müəllimlərinin III qurultayına rəhbərlik edib.

Bakı Dövlət Universitetində çalışdığı zaman Cümhuriyyət hökuməti Ali Pedaqoji İnstitutun yaradılması layihəsini tərtib etməyi ona həvalə edib. Həmid bəy Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bu işi başa çatdırıb və Xalq Komissarları Sovetinin Sədri Nəriman Nərimanova təhvil verib.

1920-ci ilin aprel işğalından sonra bolşevik hökuməti onun təhsil sahəsində yüksək mütəxəssis olduğunu nəzərə alıb. Həmid bəy Bakı Dövlət Universitetində işləməyə dəvət edilib. 1923-1925-ci illərdə universitetin prorektoru olub.

Həmid bəy Şahtaxtinski 1928-ci ildə Tiflisdəki Zaqafqaziya Universitetinin tibb fakültəsini bitirib. Bakıya dönən Həmid bəy Şahtaxtinskiyə 1929-cu ildə universitetin yaradılmasının onilliyi münasibətilə professor fəxri adı verilib. 1930-cu ilin sonlarından Azərbaycan Tibb İnstitutunda çalışıb. Repressiya bəlası başının üstünü kəsdirənədək o, dərsliklərin hazırlanmasında, elmi terminlərin Azərbaycan dilinə tərcüməsində fəal iştirak edib.

Əslində, bolşevizm bəlası ondan heç zaman uzaqda olmayıb. Sovet hökuməti Həmid bəyin maarifçilik işini dərindən bildiyini nəzərə almalı olsa da, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qurucularından biri və “İttihad” partiyasının üzvü olduğunu da yaddan çıxarmayıb.

Altmış yaşına çatmış Həmid bəy Şahtaxtinski 1940-cı il yanvarın 5-də Azərbaycan SSR XDİK-in əməkdaşı, Dövlət Təhlükəsizlik İdarəsinin mayoru Markaryanın təsdiq etdiyi qərara və Zaqafqaziya dairəsi hərbi prokurorunun sanksiyasına əsasən yanvarın 6-da həbs edilib. O, dəhşətli işgəncələrə məruz qalıb. Həmid bəyin işinə SSRİ XDİK yanında xüsusi müşavirə 1940-cı ilin 11 iyununda baxıb. Antisovet millətçi təşkilatda fəaliyyətinə görə islah-əmək düşərgəsində saxlanılmaqla səkkiz il müddətinə azadlıqdan məhrum edilib.

Vətənindən, ailəsindən uzaqlarda, Arxangelsk vilayətindəki həbsxanada ağır şərait, verilən işgəncələr onun həyatına son qoyub. Həmid bəy Şahtaxtinski 1944-cü il fevralın 3-də sürgündə həlak olub. Repressiya qurbanlarının əksəriyyəti kimi, onun da faciəli ölümü barədə ailəsinə xəbər verilməyib. Uzun illər dörd qızı ata həsrəti, intizarı ilə yaşayıblar...

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

**Səhnə sənəti**

## Sumqayıt Dövlət Dram Teatrının repertuarı genişlənir

**Böyük ədib, görkəmli dramaturq, “Molla Nəsrəddin” jurnalının qurucusu, Azərbaycanı bütün varlığı ilə sevən və xalqın maariflənməsi üçün daim mübarizə aparan Cəlil Məmmədquluzadənin yaradıcılığı hər zaman aktual olub.**



Sumqayıt Dövlət Dram Teatrının yaradıcı heyəti bu mövsümdə də Mirzə Cəlilə müraciət edib. Kollektiv Cəlil Məmmədquluzadənin 150 illiyinə töhfə olaraq ədibin “Danabaş kəndinin əhvalatları” povesti əsasında eyniadlı tamaşanı dövlət sifarişi ilə hazırlayıb.

Tamaşa XIX əsrin sonlarındakı Azərbaycan kəndinin feodal-patriarxal mühitini, zülm və özbaşınalığı, xurafatı bütün dolğunluğu ilə əks etdirir. Əsər yolunu azmış Xudayar bəyin əməllərini, pul üçün islam qanunlarını ayaqlar altına salan qaziləri, kərbəlayiləri, həmçinin bütövlükdə zülmət və qaranlığa bələnmiş mühitin cəhalət məngənəsində sıxıb əzdiyi kəndliləri səciyyələndirir.

Əsərin quruluşçu rejissoru Əməkdar artist Namis Şirməmmədovdur. Tamaşanın quruluşçu rəssamları - Elşən Sərxanoğlu və Şahin Hüseynli rejissor ideyasına və əsərin ali məqsədinə uyğun bədii dekorasiyanın öhdəsindən uğurla gəliblər. Rollarda əməkdar artistlər İlahə Səfərova, Sədaqət Nuriyeva, Cəlal Məmmədov, Mövsüm Hüseynov, aktyorlar - Habil Xanlarov, Dağlar Rüstəmov, Kamran Muradlı, Akif Mirzəyev, Yalçın Səlimov, Mətanət Əmirullayeva, Mətləb Səfərli və Fizuli Qərənizadə çıxış edirlər. Tamaşa izləyicilərə “Haqqın, ədalətin yanında ol” mesajını ötürür.

Səhnə əsərinin ictimai baxışında bədii şura üzvləri, teatrın yaradıcı heyəti iştirak edib. Teatrın direktoru Əməkdar artist Mübariz Həmidov öncə tamaşanı ərsəyə gətirən kollektivi təbrik edib, Mirzə Cəlil yaradıcılığının böyüklüyündən danışıb və klassik əsərlərin gənclərin tərbiyəsində oynadığı önəmli rolu vurğulayıb. Bədii şura üzvləri, Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəisi Mehman Şükürov, teatrın baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov və başqaları yeni tamaşanın bədii-estetik məziyyətlərindən, aktyor improvizələrinin dəqiqliyindən, tamaşanın bədii tərtibat həllinin uğurundan danışıblar. Çıxışlarda göstərilib ki, əsərin ideyası bugünkü qloballaşan cəmiyyətdə hüquq azadlığı, sosial ədalət prinsipləri ilə səsləşir.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

**Muzeylərimiz**

## “Zənginləşən xəzinəmiz”dən yeni virtual soraqlar



**Azərbaycan Milli Xalça Muzeyində “Zənginləşən xəzinəmiz” adlı sərginin virtual açılışı olub. Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova bildirib ki, sərgini onlayn şəkildə açmaq qərarına gəliblər: “Çünki texnoloji tərəqqi əsrində Milli Xalça Muzeyi dünya şəbəkəsinin saysız-hesabsız yeniliklərini mənimsəməlidir. Ziyarətçilərimiz internet vasitəsilə real zaman rejimində muzeyin sosial şəbəkə səhifəsindən bizi izləyə bilərlər”.**

Sərgidə 2017-ci ildən bu günədək kolleksiyaların zənginləşdirilməsi məqsədilə əldə edilən xovlu və xovsuz xalçalar, onların məmulatları, zərgərlik nümunələri və geyimlər təqdim olunur. Son üç ildə muzeyin kolleksiyalarına 68 əşya daxil edilib, onlardan bəzilərinin təqdimat mərasimi də keçirilib. Növbəti təqdim olunan nümunələrdən 21 eksponat isə ilk dəfə sərgilənir.

Sərgidə diqqəti cəlb edən qiymətli eksponatlardan biri muzeyin tarixində ilk dəfə məşhur “Sothebys” hərrac evindən əldə edilən zərgərlik nümunəsi - qadın asma bəzəkləridir. Qacarlar dövrünə xas üslubda, yüksək bədii zövqlə hazırlanan bu bəzəklər XIX əsrə aiddir. Onlar öz üslub xüsusiyyətlərinə görə muzeyin zərgərlik kolleksiyasında yer alan eksponatlar arasında unikal nümunələrdir.

ABŞ vətəndaşları Hilari-Dumas Jones və Jay Jones tərəfindən muzeyə hədiyyə edilən Quba xalçaçılıq məktəbinin ən məşhur kompozisiyalarından olan “Qonaqkənd” xalçası da sərgidə nümayiş olunur.

Kolleksiyaçılar tərəfindən bədii, elmi əhəmiyyət kəsb edən əşyaların təmənnasız olaraq muzeyə bağışlanması onların bu mədəniyyət ocağına böyük etibar etdiklərinin göstəricisidir. Muzey dövlət və özəl sektorda fəaliyyət göstərən təşkilat və fiziki şəxslərlə, o cümlədən Heydər Əliyev Fondu, Dövlət Gömrük Komitəsi, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu və s. qurumlarla sıx əməkdaşlıq edir. Bu təşkilatlar tərəfindən hədiyyə edilən əşyalar öz kompozisiyası, texnikası, rəng harmoniyası və ornamentlərinin zərifliyi ilə muzeyin ekspozisiyasında layiqli yer tutur.

Tədbirdə həmçinin muzey tərəfindən hazırlanan “Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasından zərgərlik inciləri” adlı kitabın təqdimatı da keçirilib. Kitabda kolleksiyanın yaranma tarixi, burada qorunan müxtəlif çeşidli qadın və kişi zərgərlik nümunələri, bu sənətdə istifadə edilən ənənəvi texnikalar və Azərbaycanın tanınmış zərgərləri haqqında müfəssəl məlumat yer alıb. Kitabın geniş oxucu kütləsinə çatdırılması məqsədilə mətnlər Azərbaycan, ingilis və rus dillərində verilib.

“Zənginləşən xəzinəmiz” sərgisi martın 26-dək ziyarətçilər üçün açıq olacaq.

**Sənət dünyası**

## Qızıl barmaqlar

### “Bacarıqlı əllər”dən çıxan əl işləri mükəmməl sənət əsərləri kimi sevilir

**Onları çoxuşaqlı ailənin üzvləri də hesab etmək olar: bir-biriləri ilə səmimi, doğma münasibətlərinə görə. Barmaqları qızıl olan bu istedadlıları bir “ailəyə” toplamaq heç də asan olmayıb. 10 il bundan öncə “zərgər barmaqlı” istedadlıları bir araya toplamaqla böyük xeyirxahlıq göstərilib.**



“Bacarıqlı Əllər Dünyası” İctimai Birliyinin sədri Azadə Məmmədova deyir ki, fiziki məhdudiyyətli uşaqların arasında elə istedadlılar var ki, onlar artıq püxtələşmiş sənətkar kimi tanınırlar. “Azərbaycanı dünyaya tanıdaq” layihəsi ilə respublikanın müxtəlif bölgələrinə (İsmayıllı, Şəki, Şamaxı, Quba və s.) səfərlər edib, orada sərgilər keçirmişik. Belə layihələrin təşkili bacarıqlı əllər sahiblərinin üzə çıxarılmasında, xüsusən onların ictimaiyyətə, cəmiyyətə inteqrasiyasında mühüm vasitələrdən biri hesab edilir”.

Qısa zaman ərzində 40-dək belə uşağın toplanmasına və nümunəvi əl işləri yaratmalarına səbəb, ilk növbədə, Zəhra Xələfova, burada əziyyəti daha çox olan Rahim Rzayev, Sevinc Məsimova, Adil Şıxəliyev kimi sevimli müəllimlərdir.

### Şamxalın “möcüzə”si...

Azadə Məmmədova “Bacarıqlı əllər” ailəsinin üzvlərini təqdim edərkən Xələfli Samxal Şahid oğlundan başladı: “1998-ci ildə Bakıda anadan olub. Autizm sindromu və nitq inkişafı geriliyi



var. Yasamal rayonundakı 153 nömrəli tam orta məktəbdə inklüziv təhsil alıb. “Sağlam Gələcəyə Yardım” İctimai Birliyi, “Birgə və Sağlam”, Bakı Uşaq Teatrı, A.Şaiq adına Kukla Teatrı, “Bacarıqlı Əllər Dünyası”, Tofiq İsmayılov adına Uşaq Qalereyası və s. yerlərdə müxtəlif dərnəklərdə təlimlər keçib. Stolüstü tennis və yüngül atletika üzrə bir çox yarışlarda iştirak edərək qalib olub. “Birgə və Sağlam”da autizmli gənclərin çalışdığı “Kasalata” kafe-atelyedə peşə, ənənəvi incəsənət vasitəsilə İnklüziv Təhsil Layihəsində keramika və foto təlimləri də alır. “Möcüzə” rəqs qrupunun üzvü olan Şamxal həm də özəl əl qabiliyyətinə malikdir - rəsmləri adamı heyran qoyur...”

Milliyyətcə mesxeti türkü olan Umarova Astımaral Əziz qızının 15 yaşı var. O, yalnız əl işləri ilə fərqlənmir, həm də gözəl rəqs edir. Tikmə, toxuma və muncuqlarla işləməyi sevir. “Bacarıqlı Əllər” dərnəyinin həm məsuliyyətli üzvü, həm də çalışqanlarındandır.

Nigar Süleymanzadənin də 15 yaşı var. Eşitməsi qüsurlu olan Nigar həm də nitq məhdudiyyətlidir. O da çox gözəl rəqs edir. Toxumaları və ümumiyyətlə, əl işləri onda əla alınır, müəllimi razılıq edir. Deyir ki, ilk başlayanda çətinlikləri az olmamışdı. Lakin indi onun əl işləri fərqlənir. Nigarın biserlərlə işləmək və rəsm çəkmək qabiliyyəti də var.

### Rəngbərəng darı muncuqlarından yaradılan pələng

Mayılzadə Fatimə də təşkilatın təlimlərindən yararlanır. Gözəl əl qabiliyyətlidir: muncuqtoxuma işlərini bacarır, dəzgahda palaz, milçə ilə papaq, şərf və s. toxuyur. Suvenir, saç sancağı düzəltməyi bacarır. Rəssamlıq Akademiyasının təşkil etdiyi rəsm əsərləri müsabiqələrində dəfələrlə I, II və III yerlərin qalibi olub.

Fatimənin anası Rəxşəndə Şiriyevanın yüksək qiymət verilən əl işləri var - muncuqdan qəndqabı, səbət toxuyur.

Bu ailədə əl qabiliyyəti ilə seçilənlərin hər biri barədə geniş söz açmasaq da, Mustafa Abdullayevin, Bəsti Hüseynovanın, Gülnar Cabbarovanın xüsusi istedad sahibi olmalarını qeyd etməliyik. Əlbəttə, belə “qızıl barmaqlılar” barəsində yazmaq, təqdim etmək həm də onların sağlam həyat uğrunda mübarizə aparmalarına bir stimul, cəmiyyətə inteqrasiyalarına təkan deməkdir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

**Mədəniyyət xəbərləri**

## YARAT-da mart sərgiləri

**Baharın ilk ayı olan mart yaddaşlara həm də bayramların sayca çoxluğu ilə yazılıb. Bu il də ənənəyə sadiqlik özünü göstərir.**

Martın 18-də YARAT Müasir İncəsənət Mərkəzində tanınmış rəssam Fərid Rəsulovun “Qurban olum” və Amsterdamda yaşayan rəssam Əhməd Öğütün “Heç bir şeir şairini sevməz” sərgiləri təqdim olunacaq.

Fərid Rəsulov yeni sərgisində müqəddəs Qurban bayramına həsr olunmuş əsərlərini təqdim edəcək.

Azərbaycanı 53 və 55-ci Venesiya Biennalesində təmsil etmiş Fərid Rəsulov Şərq ənənələrinə həsr olunmuş əsərləri ilə məşhurdur. O, rəssamlıq, instalyasiya, animasiya, heykəltəraşlıq və 3D qrafikası da daxil olmaqla, müxtəlif vasitələrlə işləyir və əsrlər boyu dəyişməyən bu ənənələrə xas olan ideallların doğruluğunu əks etdirən xalq sənətkarlığı və mərasimlərindən ilham alır, adət-ənənələri müasir reallıqlar fonunda yenidən qiymətləndirməyə çalışır.

## “Şərqi Paris”də “Ye, gəz, tamaşa et”

**Rusiyanın “RİA Novosti” informasiya agentliyi Bakı haqqında fotolent təqdim edib. “Ye, gəz, tamaşa et. Azərbaycan paytaxtı üzrə bələdçi” sərlövhəsi altında Bakı şəhərinin müxtəlif guşələrindən 13 fotoşəkil nümayiş etdirilir.**




Fotolentin təqdimatında deyilir: “Bakını bəzən “Şərqi Paris” də adlandırırlar. Minillik tarixə malik bu şəhər sovet kinofilmlərində həm İstanbul, həm də Buenos-Ayres rolunu yerinə yetirib. Azərbaycan paytaxtında nəyə tamaşa etmək, nə yemək və nə almaq lazım olduğunun hamısı “Ria Novosti” fotolentində”.

Agentlik turistlərə Bakıya səfər etməyi, şəhərin “Alov qüllələri”, Şirvanşahlar sarayı, İçərişəhər, Qız qalası, Heydər Əliyev Mərkəzi, “Baku Crystal Hall”, Dənizkənarı bulvar və s. kimi görməli yerləri ilə tanış olmağı təklif edir.

## Nağıllar və əfsanələrin rəngləri




**Mart ayında Muzey Mərkəzinin sərgi qalereyasında Əfsanə Həbibin “Favole” adlı fərdi sərgisi açılacaq.**

Sərginin adı italyan dilindən “nağıllar, əfsanələr” kimi tərcümə olunur. Maraqlı bir nüans yaranıb: sərgi ilə rəssamın adı üst-üstə düşür. Əfsanə Həbibi 62 rəsm əsərinin daxil olduğu, özündə “müəmma” və “tapmaca” ideyaları, bir çox mənaları və... oyunları birləşdirən ekspozisiya hazırlayıb. Əsərlərinin əksəriyyəti isə dünya mədəniyyətinin “Venesiya karnavalı” kimi tanıdığı unikal hadisəyə həsr edilib.

**Tamaşa**

## “Qarabağnamə” nümayiş ediləcək

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının repertuarında xüsusi yer tutan “Qarabağnamə” tamaşası növbəti dəfə 31 mart - Azərbaycanlıların soyqırımı günü münasibətilə nümayiş olunacaq.**



Teatrın mətbuat xidmətindən bildirilib ki, Xalq yazıçısı, görkəmli dramaturq İlyas Əfəndiyevin “Hökmdar və qızı” əsəri əsasında hazırlanan tamaşanın rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı İsmayıl Məmmədovdur.

Martın 29-da nümayiş ediləcək tamaşada rolları Xalq artistləri Kazım Abdullayev, Firəngiz Mütəllimova, Rafiq Əzimov, Hacı İsmayılov, Əli Nur, Ramiz Məlik, Əjdər Həmidov, Əməkdar artistlər Elxan Quliyev, Məsmə Aslanqızı, Elnar Qarayev, Aslan Şirin, Kazım Həsənquliyev, Elşən Cəbrayılov, Əminə Babayeva, aktyorlar İlyas Əhmədov, Ləman İmanova, Elnur Qədirov, Rada Nəsibova ifa edəcək.

Tamaşanın musiqi tərtibatçısı Həmid Kazımzadə, geyim rəssamı Aygün Mahmudova, işıq üzrə rəssamı Rafael Həsənovdur.

Səhnə əsərində XVIII əsrdə Qarabağ xanlığının mərkəzi olan Şuşada baş vermiş tarixi hadisələrdən və Qarabağ hökmdarı İbrahim xanın ictimai-siyasi, ailə-məişət həyatından bəhs edilir.

O dövrdə xanlıqlara bölünmüş Azərbaycana yiyələnmək istəyən Rusiya və İranla siyasi əlaqələri və dostluq münasibətlərini bərqərar etməyə çalışan İbrahim xan erməni fitnəkarlığının qurbanı olur.

***“Azərbaycan”***



# Qədim diyarın tarixini əks etdirən muzey

M.A.Əliyev adına Lənkəran Tarix Diyarşünaslıq Muzeyində xalqımızın qədim və müasir tarixinə aid minlərlə eksponat nümayiş etdirilir. Onlar muzeyə gələnlərin böyük marağına səbəb olur.

Muzeyə o cümlədən xarici turistlər də baş çəkir və burada xüsusilə qədim dövrə aid əşyalara heyranlıqla tamaşa edirlər. Belə ki, muzeydə Daş dövrünə aid həvəngdəstə, çəkiclər, sümükdən hazırlanmış bıçaqlar və s. qorunub saxlanır. Burada eləcə də Tunc dövrünə aid silahlar və qadın bəzək əşyaları toplanıb. XX əsrin əvvəllərində Lənkəranda açılmış Behcət məktəbinin adının həkk olunduğu daş lövhə də ən çox diqqəti cəlb edən eksponatlardandır.

Muzeydə həmçinin Lənkəranın müxtəlif dövrlərdə yaşamış, qurub-yaratmış görkəmli insanları haqqında geniş məlumat əldə etmək mümkündür.

*Foto Fərman BAĞIROVUNDUR,*
*"Azərbaycan"*

# Azərbaycanın Latviyadakı səfirliyi bu ölkədə yaşayan vətəndaşlarımıza müraciət ünvanlayıb

Azərbaycanın Latviyadakı səfirliyi bu ölkədə COVID-19 yeni növ koronavirus infeksiyası ilə əlaqədar 2020-ci il martın 13-dən aprelin 14-nə kimi elan olunan fövqəladə vəziyyətlə bağlı Latviyada yaşayan vətəndaşlarımıza müraciət ünvanlayıb.

AZƏRTAC xəbər verir ki, səfirlik koronavirus infeksiyası ilə bağlı Latviya Respublikası hökuməti tərəfindən yayılan rəsmi məlumatlara və məsləhətlərə ciddi şəkildə əməl olunmasını tövsiyə edir.

Səfirliyimiz soydaşlarımızda COVID-19 yeni növ koronavirus infeksiyasına dair hər hansı sual olacağı təqdirdə Latviya Respublikasının Xəstəliklərin qarşısının alınması və Nəzarət Mərkəzinə +3716 7501590 və ya +371 67387661 telefon nömrələri vasitəsilə müraciət etmələrinin önəmli olduğunu bildirib.

Vətəndaşlarımıza yoluxma riskinin mümkün qədər azaldılması məqsədilə şəxsi gigiyena və təmizlik qaydalarına ciddi əməl edilməsi - əllərin sabunla tez-tez yuyulması, ictimai nəqliyyatdan mümkün qədər az istifadə edilməsi, insanların çox toplaşdıqları qapalı və açıq məkanlara gedilməməsi, dezinfeksiya tərkibli məhlullardan tez-tez istifadə olunması tövsiyə olunub.



**LATVIYA RESPUBLIKASINDA YAŞAYAN AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARININ DİQQƏTİNƏ**

Əziz həmvətənlərimiz,

COVİD-19 yeni növ koronovirus infeksiyasının yayılması ilə bağlı Latviya Respublikası ərazisində 2020-ci ilin 13 mart tarixindən 14 aprel tarixinə qədər fövqəladə vəziyyətin elan edilməsi ilə əlaqədar Səfirlik Azərbaycan Respublikası vətəndaşlarına tövsiyə edir:

- COVİD-19 yeni növ koronovirus infeksiyası ilə bağlı Latviya Respublikası Hökuməti tərəfindən yayılan rəsmi məlumatlar və tövsiyələrə ciddi şəkildə əməl edilməsi – aşağıdakı internet səhifələrində yerləşdirilmiş məlumatlarla tanış olunması https://spkc.gov.lv/lv/aktualitates/get/nid/787 http://www.vm.gov.lv/en/ministry/novel_coronavirus_covid19_advice_for_the_public1/
- COVİD-19 yeni növ koronovirus infeksiyasına dair hər hansı sual olacağı təqdirdə bağlı Latviya Respublikasının Xəstəliklərin qarşısının alınması və Nəzarət Mərkəzinə +3716 7501590 və ya +371 67387661 telefon nömrələri vasitəsilə müraciət etmək olar.
- Vətəndaşlarımız arasında yoluxma riskinin mümkün qədərə azaldılması məqsədilə şəxsi gigiyena və təmizlik qaydalarına ciddi əməl edilməsi - əllərin sabunla tez-tez yuyulması, ictimai nəqliyyatdan mümkün qədər az istifadə edilməsi, insanların çox toplaşdıqları qapalı və açıq məkanlara gedilməməsi, dezinfeksiya tərkibli məhlullardan tez-tez istifadə edilməsi,
- COVİD-19 yeni növ koronovirus infeksiyası ilə bağlı vətəndaşlarımızın Səfirliyin konsulluq şöbəsinə i iş saatları ərzində +371 67142892 və yaxud 24 saat ərzində +371 24962251 qaynar xətt vasitəsilə müraciət edilə bilər.
- Yaranmış epidemioloji vəziyyətlə əlaqədar Səfirliyin Konsulluq şöbəsi məhdud rejimdə fəaliyyət göstərəcəkdir. Təcili konsulluq məsələləri ilə bağlı a_shirinov@mfa.gov.az elektron poçt ünvanına müraciət edilə bilər. Edilən müraciətdə vətəndaşımızın adı, soyadı və əlaqə vasitələri mütləq qeyd edilməlidir.
- Hər hansı fövqəladə vəziyyətdə vətəndaşlarımızın operativ qaydada məlumatlandırılması məqsədilə Azərbaycan Respublikası vətəndaşlarının Səfirliyin Konsulluq şöbəsində konsulluq qeydiyyatına düşmələri tövsiyə edilir.

Hörmətlə,

**Azərbaycan Respublikasının Səfirliyi**
**RİQA**

COVID-19 yeni növ koronavirus infeksiyası ilə bağlı vətəndaşlarımızın səfirliyin konsulluq şöbəsinə iş saatları ərzində +371 67142892 və yaxud 24 saat ərzində +371 24962251 qaynar xətt vasitəsilə müraciət etmələrinin vacib olduğu bildirilib.

Hər hansı fövqəladə vəziyyətdə soydaşlarımızın operativ qaydada məlumatlandırılması məqsədilə Azərbaycan Respublikası vətəndaşlarının səfirliyin konsulluq şöbəsində konsulluq qeydiyyatına düşmələri tövsiyə edilib.

Qeyd edək ki, Azərbaycanın Estoniyadakı səfirliyi də 2020-ci il martın 12-dən etibarən Estoniya Respublikasının ərazisində koronavirus infeksiyasının yayılması ilə əlaqədar fövqəladə vəziyyət elan olunması ilə bağlı bu ölkədə yaşayan soydaşlarımıza müraciət ünvanlayıb.

# Bakıda keçirilən idman gimnastikası üzrə dünya kuboku yarışlarının final mərhələləri ləğv olunub

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı rəhbər tutularaq, martın 14-də və 15-də Bakıda keçirilməsi planlaşdırılan idman gimnastikası üzrə dünya kuboku yarışlarının final mərhələləri ləğv olunub.

AZƏRTAC Azərbaycan Gimnastika Federasiyasının saytına istinadla xəbər verir ki, federasiya bu qərarı dünyada yayılmış koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi ilə bağlı qəbul edib.

# Azərbaycanın milli aviadaşıyıcısı bütün istiqamətlər üzrə biletləri dəyişməyə hazırdır

13 mart 2020-ci il, Bakı - Koronavirus infeksiyası COVID -19 ilə bağlı dünyadakı vəziyyət ilə əlaqədar Azərbaycanın milli aviadaşıyıcısının rəhbərliyi sərnişinlər istədikdə bütün ləğv edilmiş istiqamətlər üzrə biletlərin qaytarılması və dəyişdirilməsi, həmçinin fəaliyyətdə olan istiqamətlər üzrə biletlərin dəyişdirilməsi barədə qərar qəbul etmişdir.




Beləliklə, "Azərbaycan Hava Yolları" aviaşirkəti və aşağıbüdcəli "Buta Airways" aviadaşıyıcısının bütün ləğv olunmuş (və yaxud gələcəkdə ləğv olunacaq) istiqamətləri üzrə istənilən tarif üzrə əldə olunmuş biletlərin qaytarılması və ya dəyişdirilməsinə icazə verilir. Sərnişinlər cəriməsiz şəkildə biletin geri qaytarılmasını rəsmiləşdirə və həmin aviabiletin tam dəyərini geri ala, istiqaməti və uçuş tarixini dəyişdirə bilərlər.

Həmçinin sərnişinlərin çoxsaylı müraciətlərini nəzərə alaraq AZAL və "Buta Airways" aviaşirkətləri tərəfindən yerinə yetirilən bütün reyslərə rəsmiləşdirilən aviabiletlərin sərnişinin 31 mart 2020-ci il tarixinədək müraciətinə əsasən aşağıdakı şərtlərə əməl olunaraq dəyişdirilməsinə icazə verilir:

- *yeni aviabiletlərin uçuş tarixi 31 dekabr 2020-ci il tarixindən gec olmamalıdır;*
- *biletin dəyişdirilməsi zamanı tarifin maksimal etibarlılıq müddəti tətbiq olunur;*
- *hər aviabilet bronlaşdırma sistemində başqa tarixə eyni xidmət sinfi mövcud olduğu halda cəmi bir dəfə cərimə tətbiq olunmadan dəyişdirilə bilər;*
- *eyni bronlaşdırma sinfi mövcud olmadıqda siniflər arasındakı tarif fərqi sərnişin tərəfindən ödənilməlidir.*

Bundan əlavə, Azərbaycanın milli aviadaşıyıcısı cari ilin may ayının sonunadək bəzi tariflərin brendlərində aviabiletlərin geri qaytarılması və dəyişdirilməsi qaydalarına dəyişikliklər edir. Belə ki, 14 mart tarixindən 31 may tarixinədək əldə olunan aviabiletlər üçün aşağıdakı tariflərdə yenidən təxsisetmə və biletlərin geri qaytarılması ilə bağlı cərimələr üzrə bütün məhdudiyyətlər götürülür: "AZAL" aviaşirkətinin "Economy Flex" tarifi və "Buta Airways" aşağıbüdcəli aviaşirkətinin "SUPER" tarifi.

Bu halda, sərnişinlər aşağıdakı hüquqlara malikdirlər:

- *əldə olunmuş aviabiletin geri qaytarılmasını rəsmiləşdirmək və həmin aviabiletin tam dəyərini geri almaq - uçuşdan həm əvvəl, həm də sonra;*
- *uçuş vaxtını ilkin yola düşmə və təyinat məntəqələrinin və xidmət sinfinin saxlanılması ilə yenidən təxsisetməyə görə cərimə tutulmadan daha münasib vaxta keçirilməsini uçuşdan həm əvvəl, həm də sonra rəsmiləşdirmək.*

Hazırkı qaydalar "AZAL" və "Buta Airways" aviaşirkətlərinin "Economy Flex" və "SUPER" tariflərinin brendlərinin tətbiq olunduğu bütün istiqamətlərinə şamil olunur.

Aviaşirkətin rəsmi saytında onlayn rejimdə alınan aviabiletin geri qaytarılması üçün call-center@azal.az elektron poçt ünvanı vasitəsilə çağrı mərkəzi və yaxud saytımızdakı əks əlaqə forması: https://help.azal.az/hc/az/requests/new vasitəsilə əlaqə saxlaya bilərsiniz.

Aviabilet turizm şirkətindən və ya agentlikdən əldə olunduğu təqdirdə müvafiq turizm agentliyinin satış kassalarına müraciət etməyiniz xahiş olunur. Təxsisetmə kredit və ya debet kartı vasitəsilə ödənildiyi halda vəsait karta qaytarılacaqdır.

***"Azərbaycan Hava Yolları"***
***QSC-nin mətbuat xidməti***

# Ermənistan ordusu Qazaxda yaşayış evlərini və mülki nəqliyyat vasitələrini atəşə tutub

Azərbaycan Respublikasının Ermənistan ilə dövlət sərhədində düşmən tərəfinin təxribatları davam edir.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən bildiriblər ki, martın 14-də saat 13:30-dan 14:00-dək Qazax rayonunun Abbasbəyli kəndində yaşayış evləri və avtomobil yolu ilə hərəkət edən mülki nəqliyyat vasitələri Ermənistanın İcevan rayonunun Berkaber, Lalaqux və Sevkar kəndləri yaxınlığında yerləşən Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən iriçaplı silahlardan intensiv atəşə tutulub.

Düşmən təxribatının qarşısı alınıb, yaşayış məntəqəmizə və mülki nəqliyyat vasitələrinə qarşı atəşin açıldığı Ermənistan silahlı qüvvələrinin döyüş mövqeləri cavab atəşi ilə susdurulub.

Hazırda əməliyyat şəraiti sərhəd döyüş məntəqələrimizin nəzarəti altındadır.

***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Türkiyə ordusu PKK/YPG-nin 286 üzvünü zərərsizləşdirdi

Son bir ay ərzində terrorizmlə mübarizə çərçivəsində Türkiyə Silahlı Qüvvələri PKK/YPG separatçı terrorçu təşkilatının 286 üzvünü zərərsizləşdirmişdir. Bu barədə TRT telekanalı xəbər verir.



Milli Müdafiə Nazirliyinin məlumatında deyilir ki, son bir ay ərzində Suriyada "Sülh bulağı" əməliyyatının keçirildiyi bölgədə 155 terrorçu məhv edilmişdir. Həmin dövrdə Mənbicdən "Fərat qalxanı" əməliyyatı bölgəsinə soxulmağa cəhd edən 37 terrorçu və Təl-Rifatdan "Zeytun budağı" əməliyyatı bölgəsinə girmək istəyən 7 terrorçu zərərsizləşdirilmişdir. Son bir ay ərzində daxili və xarici əməliyyatlar zamanı 87 terrorçu məhv edilmişdir.

## Rusiya apreldə gündəlik neft hasilatını 200 min barel artıra bilər

Rusiyanın neft şirkətləri "OPEC+"un sazişi üzündən azaldılmış neft hasilatını artıq gələn ay gündə 200 min barel artırmaqla bərpa edə bilər. Bu barədə Energetika naziri Aleksandr Novak məlumat vermişdir. Novakın dediyinə görə, "OPEC+" sazişi ilə əlaqədar azaldılmış hasilatı 2018-ci ilin oktyabrına olan nisbətdə tez bir zamanda bərpa etmək olar. Əlavə hasilata gəldikdə isə investisiya xərclərini təmin etmək üçün bir müddət vaxt tələb olunacaq.



## Geyts "Microsoft"un direktorlar şurasından çıxdı

"Microsoft"un banisi Bill Geyts şirkətin direktorlar şurasını tərk edir. Bu barədə o, Linkedindəki səhifəsində məlumat vermişdir.



CNBC telekanalının xəbərinə görə, milyarder demişdir: "Microsoft" həmişə həyatımın vacib tərkib hissəsi olacaq, korporasiyanın baş direktoru Satya Nadella və texniki rəhbərliklə əməkdaşlığımı davam etdirəcəyəm ki, ambisiyalı məqsədlərə nail olmaqda onlara kömək edim".

Sahibkar səhiyyə, təhsil və iqlim dəyişikliyi ilə mübarizə sahəsində xeyriyyəçiliyə daha çox vaxt ayırmaq niyyətindədir. Geyts şirkətdə Nadellanın və "Microsoft"un digər rəhbərlərinin müşaviri kimi işini davam etdirəcək.

Geyts "Microsoft"u 1975-ci ildə sahibkar Pol Allenlə birgə yaratmışdır.

## Yunanıstanda Olimpiya məşəli estafeti ləğv olundu

Yunanıstan ərazisində Olimpiya məşəli estafeti olmayacaq. Müvafiq qərarı koronavirus epidemiyasına görə təşkilatçı - Milli Olimpiya Komitəsi qəbul etmişdir.



Yunanıstanda Olimpiya alovunun yandırılması mərasimi tamaşaçısız keçirilmişdir. Mərasimdə Beynəlxalq Olimpiya Komitəsi (BOK) və Yaponiyada keçiriləcək Olimpiadanın Təşkilat Komitəsi tərəfindən akkreditə olunmuş cəmi 100 nəfər iştirak etmişdir. Jurnalistlər tədbirə buraxılmamışdır.

Bundan əvvəl BOK bildirmişdi ki, bu il iyulun 24-dən avqustun 9-dək Tokioda keçiriləcək Yay Olimpiya Oyunları vaxtında başlayacaq.

## 3 milyard adam əllərini yumaq imkanından məhrumdur



Dünyada 3 milyard nəfərə yaxın adam axar su altında əllərini sabunla yumaq imkanından məhrumdur. Bu isə yeni tipli koronavirusla mübarizədə son dərəcə vacibdir.

BMT-nin Uşaq Fondunun (UNİCEF) məlumatına görə, göstərilən rəqəm dünya əhalisinin ümumi sayının təxminən 40 faizini təşkil edir. Dünyada beş nəfərin yalnız üçü evdə axar su altında əllərini yuya bilir. Ən az inkişaf etmiş ölkələrdə adamların təxminən dörddəüçü belə bir imkandan məhrumdur.

Bundan əlavə, dünyada məktəblərin üçdəbirində uşaqların əllərini yuması üçün lazımi şərait mövcud deyil. Səhiyyə mərkəzlərinin 16 faizində isə funksional tualetlər və əl-üz yuyanlar yoxdur.

# Ermənistan ordusu atəşkəs rejimini 30 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım, Aşağı Əskipara, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Xocavənd rayonunun işğal altında olan Kuropatkino, Füzuli rayonunun Qərvənd, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

***AZƏRTAC***

## Düzəliş

"Azərbaycan" qəzetinin 14 mart 2020-ci il tarixli sayında "Bakı Şəhər İşığı" Elektrik Şəbəkə müəssisəsinin açıq tender elanında axırdan 3-cü abzas "İddiaçılar LOT üzrə tender təkliflərini 22.04.2020-ci il saat 14:00-a qədər dövlət satınalmaları vahid internet portalına yerləşdirməlidir" kimi oxunmalıdır.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6953**
**Sifariş 863**
**Qiyməti 40 qəpik**